

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 07 (798) ■ 17 fevral 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:
# «İşğal nəticəsində insanlardan əlavə, təbiətimiz də əziyyət çəkir»

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində «İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?» mövzusunda keçirilən panel-müzakirədə iştirak edib. Tədbirə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da qatılıblar.

Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirin mövzusunun dünyada iqlim və enerji təhlükəsizliyinə həsr olunduğunu deyib. Daha sonra o, bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin, bir çox mötəbər qonaqların iştirak etdiyini bildirib və sözü dövlətimizin başçısına verərək deyib:

***- Cənab Prezident, sualıma Sizdən başlamaq istəyirəm. Azərbaycanda səhralaşma, daşqınlar, quraqlıq müşahidə edilir. Uzun müddətdir sərhədyanı münaqişəniz olan Ermənistan ilə əhəmiyyətli su resurslarını paylaşırsınız. Sizcə, iqlim təzyiqi Qafqazda geosiyasi gərginlikləri daha da kəskinləşdirəcəkmi?***

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, hamımızın üzləşdiyi bir təhlükədir. Azərbaycana gəlincə, müstəqilliyimizin son 25 ilində atmosferə qaz tullantılarını azalda bilmişik. 1990-cı ildə tullantılar 70 milyon tondan çox təşkil edirdi, indi isə təqribən 50 milyon tondan çoxdur və bu, iqtisadiyyatımızın həmin müddətdə kəskin şəkildə artmasına baxmayaraq, baş verirdi.

Lakin, əlbəttə, çağırışlar və təhlükələr mövcuddur. Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir. Sizin də qeyd etdiyiniz kimi, biz iyirmi ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkirik. Ərazilərimizin 20 faizi işğal altındadır. İnsanların əziyyət çəkməsindən savayı, təbiətimiz də əziyyət çəkir. Çünki hər hansı beynəlxalq nəzarət altında olmayan bu ərazilərdə çoxlu qeyri-qanuni fəaliyyətlər, xüsusilə meşələrin qırılması baş verir. Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir.

Biz ağac əkirik. Biz hər il milyonlarla ağac əkirik. Biz qazlaşdırma siyasətini davam etdiririk. Bu gün biz elektrik enerjisinin generasiyası üçün əsasən sudan və qazdan istifadə edirik. Baxmayaraq ki, Azərbaycanın Kioto protokoluna əsasən heç bir öhdəliyi yoxdur, bu, bizim bu işə töhfəmizdir. Biz bu məsələyə çox sadiqik və müstəqillik illərində fəaliyyətimiz də bu prosesdə etibarlı tərəfdaş olduğumuzu nümayiş etdirir.

**Aparıcı:** ***Sualımı qısaca davam etdirmək istəyirəm. Vacib sayılan Kür-Araz hövzəsində su çatışmazlığı perspektivi ilə üzləşmə Azərbaycanı Ermənistan ilə bu resursların müştərək paylaşmasının idarə olunmasında daha da sıx əməkdaşlığa vadar edirmi?***

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, biz işğalı davam etdirən ölkə ilə daha da böyük anlaşmaya malik olmaq istəyirik. Sizə deyə bilərəm ki, bu yaxınlarda - yanvar ayında Avropa Şurasının Parlament Assambleyası qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul etmişdir. Parlament Assambleyasında əksəriyyət tərəfindən qəbul edilmiş bu qətnamədə əziyyət çəkən insanlara iztirab verməyə son qoymağa çağırış edilir. Əfsuslar ki, onlar Dağlıq Qarabağ Azərbaycanın hələ de-fakto hissəsi olanda tikilmiş su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edirlər.

Əlbəttə ki, Kür və Araz çaylarından götürülən su bizim üçün çox vacibdir. Buna baxmayaraq, biz dağlarımızdan Bakı şəhərinə su nəql edən boru kəməri tikmişik və regiondan nisbətən az asılıyıq. Lakin yenə də bu, bizim üçün ciddi problemdir. Buna baxmayaraq, bizim Xəzər dənizi kimi böyük su hövzəmiz var. Biz dəniz suyunun irriqasiya məqsədləri və sonradan içməli su kimi istifadə edilməsi üçün onun duzsuzlaşdırılması prosesinə başlamışıq.

**Aparıcı:** ***Cənab Prezident, Paris razılaşmasında qeyd edildiyi kimi, Sizin üzərinizə götürdüyünüz iqlim öhdəliklərində enerji sektorunun müasirləşdirilməsi üçün bir neçə amil sadalanmışdı. Əgər ölkəniz Paris razılaşmasının öhdəliklərini həqiqətən də ciddi qəbul edirsə, onda enerji əsaslı iqtisadiyyatı şaxələndirmək üçün hazırda etdiyinizdən daha da çox səylər göstərilməməlidirmi? Zənnimcə, enerji ölkənizin gəlirinin 70 faizini təşkil edir.***




**Prezident İlham ƏLİYEV:** Biz bu məsələnin üzərində işləyirik. Lakin bir məsələni unutmamalıyıq, Azərbaycan müstəqilliyini bərpa edəndə iqtisadiyyat tamamilə məhv edilmişdi, yoxsulluq və durğunluq geniş vüsət almışdı. Odur ki, dünya xəritəsində yerimizi müəyyənləşdirməyin yeganə yolu ölkəmizin inkişafı üçün enerji ehtiyatlarımızdan istifadə etmək idi. Buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra üç ildən daha da az müddətdə - 1994-cü ildə biz dünyanın əsas enerji şirkətlərini Azərbaycana gəlməyə və sərmayə yatırmağa dəvət etdik. O zaman Xəzər dənizi ilk dəfə Amerika və Avropa neft şirkətlərinin birbaşa cəlb edildiyi ərazi olmuşdu. O zaman bizim üçün enerji təhlükəsizliyi və enerji siyasəti müasirləşmək, şaxələnmək və infrastruktura sərmayə yatırmaq yolu idi. Çünki neft satışından əldə etdiyimiz vəsait suveren rifah fondunda saxlanılırdı və eyni zamanda, neftdən asılılığı azaltmaq üçün infrastruktura sərmayə kimi yatırılırdı.

Bu şaxələndirmə siyasətinin nəticəsində indi ümumi daxili məhsulumuzun 70 faizindən çoxu artıq qeyri-neft sektorunun payına düşür. Əlbəttə ki, biz ixrac əməliyyatlarında neft qiymətlərindən asılıyıq. İxracımızın 90 faizini neft və qaz təşkil edir.

İndi isə biz özəlləşdirmə, iqtisadiyyatımızın şaxələndirilməsi və biznes mühitinin yaxşılaşdırılması da daxil olmaqla, neft və qazdan asılılığı azaltmaq üçün irimiqyaslı islahatlar həyata keçiririk. Yeri gəlmişkən, neftin qiymətinin kəskin şəkildə - dörd dəfə ucuzlaşması bizim üçün daha çox texnologiyaya, qeyri-neft iqtisadiyyatına, kənd təsərrüfatına, informasiya-kommunikasiya texnologiyalarına sərmayə yatırmaq baxımından fürsət idi. Növbəti illərdə bütün planlarımızı uğurla həyata keçirə bilsək, qəti əminəm ki, Azərbaycan neftdən asılılığı tamamilə aradan götürəcək.

Qeyd etdiyim kimi, bu yaxınlarda neftin qiymətinin aşağı düşməsi səbəbindən Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlamışdır və biz dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi yerimizi tapmalıyıq.

**Aparıcı:** ***Maraqlısı odur ki, Sizin iqlim öhdəliklərinizdə tərəfinizdən bəyan olunan məqsədlərə çatmaq üçün əngəl törədəcək əsas potensial məhdudiyyət kimi neftin qiymətinin ucuzlaşması göstərilir.***

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, bizim gəlirlərimizə təsir edəcək. Lakin, eyni zamanda, düşünürəm ki, bu, bizi islahatların aparılmasına daha da ciddi sövq edəcək və Azərbaycanın gələcək inkişafı neftin qiymətindən, yaxud da hasilatın həcmindən asılı olmayacaq. Eyni zamanda, biz minlərlə, on minlərlə iş yeri yaradacaq və Avropaya şaxələnmək imkanını verəcək «Cənub» qaz dəhlizi layihəsini həyata keçiririk. Yeri gəlmişkən, Avropa əlavə həcmdə təbii qaz əldə edəcək və həm də istixana effektini yaradan karbon qazının atmosferə tullantısını azaldacaq. Bu enerji təhlükəsizliyi təkcə marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsi layihəsidir və biz istehsalçılara, tranzit və istehlakçı ölkələrə fayda verəcək bir layihədir.

**Aparıcı:** ***Uyğunlaşma üzərinə əsas diqqəti cəmləyərək yenə də sualımı Prezident Əliyevə vermək istəyirəm. Ekologiyaya mənfi təsirin aradan qaldırılmasına böyük vəsait yönəldilir. Lakin Azərbaycan kimi ölkələrə kömək etmək üçün uyğunlaşmaya kifayət qədər vəsait ayrılırmı? Fikrimcə, ölkəniz uyğunlaşma üçün tələb olunan xərclərin ən azı 3 milyard avro təşkil etdiyini təxmin edir. Əgər bu rəqəm bundan da artıq deyilsə, Siz sizə lazım olan köməyi əldə edirsinizmi?***

**Prezident İlham Əliyev:** Əslində, Azərbaycanın, ümumiyyətlə, siyasəti ondan ibarətdir ki, biz qazandığımızdan daha az xərcləməliyik. Əsas investisiya layihələri, o cümlədən enerji sahəsinə sərmayələr əsasən özümüzün və tərəfdaşlarımızın maliyyə resurslarından qaynaqlanırdı. Buna görə də biz heç bir əsaslı maliyyə dəstəyini gözləmirik.

Son zamanlar Azərbaycanın əsaslı dərəcədə maliyyə resurslarını topladığını nəzərə alaraq hətta neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim iqtisadi inkişafımıza təsir edə bilməmişdi. Ötən il ümumi daxili məhsulumuz 1 faizdən çox artmışdı və qeyri-neft sektorunda 8 faizdən çox artım qeydə alınmışdı. Bu da əsasən şaxələndirmə və qeyri-neft infrastrukturuna investisiyaların yatırılması siyasəti sayəsində mümkün olmuşdur. Ona görə də bu, bizim üçün, əlbəttə ki, regionda ümumi vəziyyət üçün çox vacibdir. Dayanıqlı inkişaf bizim məqsədimiz və hədəfimizdir. İqlim dəyişikliyi məsələsinə gəldikdə isə əvvəldə dediyim kimi, Kioto protokoluna əsasən heç bir öhdəliyimizin olmamasına baxmayaraq, bizim iqtisadi siyasətimiz, bərpa olunan enerji mənbələrinə yatırdığımız investisiyalar, 10-dan çox su elektrik stansiyasının tikilməsi, bütün bunlar bizim verdiyimiz töhfədir.

Yenə də qeyd edirəm ki, əgər tərəfdaşlarımızla birlikdə, məsələn, neft-qaz sahəsinə sərmayə yatırmasaydıq, bu gün bizim elektrik stansiyalarımız Sovet İttifaqı vaxtındakı kimi istismar edilərək maye yanacaqla işləyərdi. Bu gün bütün elektrik stansiyalarımız ya təbii qazla, ya da su ilə işləyir. Beləliklə, bunlar enerji sektoruna yatırılan investisiyalardır və onlar da öz növbəsində atmosferə karbon tullantılarının azalmasına müsbət təsir edir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əlbəttə ki, biz bu risklərin idarə edilməsində vacib rol oynamaqda davam edəcəyik.

*Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şefçoviç, ABŞ Senatının ətraf mühit və ictimai işlər komitəsinin üzvü Şeldon Uaythaus, «Allianze SE» şirkətinin baş icraçı direktoru, Münxen Təhlükəsizlik Konfransının Məşvərət Şurasının üzvü Oliver Bate, «Green Peace International» təşkilatının sabiq icraçı direktoru Kumi Naydoo iqlim dəyişikliyi ilə bağlı ictimai rəyin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyini bildiriblər. Qeyd olunub ki, iqlim dəyişikliyi təbii sərvətlərə, insanların həyat tərzinə təsir göstərir, belə olan halda insanlar iqlim mühacirlərinə çevrilirlər. Bundan əlavə, dünyada suyun səviyyəsinin artması baxımından insanların təhlükəli ərazilərdə məskunlaşmasının qarşısının alınması ilə bağlı daha çox işlər görülməlidir.*

*Çıxış edənlər enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bölüşüblər. Sonra müzakirələr aparılıb.*

**Ermənistanın Xarici İşlər Nazirliyinin əməkdaşı:** ***Mən Ermənistan Xarici İşlər Nazirliyindənəm və sualım Prezident Əliyevədir. Cənab Prezident, Siz Ermənistanı suyun çirkləndirilməsinə və digər ciddi siyasi məsələlərə görə günahlandırırsınız və bununla bağlı bizim Ermənistanda fərqli mövqeyimiz var. Azərbaycanda baş verən hər bir mənfi hala görə Azərbaycanın Ermənistanı günahlandırmasını necə izah edə bilərsiniz? Məsələn, beynəlxalq ictimaiyyət Azərbaycanı insan hüquqları sahəsində vəziyyətə görə tənqid etdikdə Azərbaycan Ermənistanı günahlandırır. Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti Azərbaycanla bağlı ciddi qətnamələr qəbul etdikdə Azərbaycan yenə də Ermənistanı və erməni lobbisini tənqid edir. Hətta Azərbaycanda neft istehsalı azaldıqda «British Petroleum» şirkəti Ermənistanla əlbir olmasına görə tənqid edilmişdi. Cənab Prezident, bütün bu çətin suallara bir cavabın verilməsi daha asan deyilmi?***

**Prezident İlham ƏLİYEV:** Əvvəla, qeyd etmək istəyirəm ki, sizin sualınızda ifadə olunan fikirlər tamamilə səhvdir. Biz Ermənistanı sizin qeyd etdiyiniz səbəblər üzündən günahlandırmırıq. Əvvəla, təkcə Azərbaycan deyil, Ermənistan da Avropa Şurası, Avropa Parlamenti tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasına, prezident və parlament seçkilərinin saxtalaşdırılmasına və hökumətinizin törətdiyi bir çox digər işlərə görə tənqid edilir.

Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq. Onların 40 mini Dağlıq Qarabağdandır, 750 mini Azərbaycanın digər işğal olunmuş rayonlarındandır, 200 mini isə Ermənistandan qovulmuşdur və etnik təmizləməyə məruz qalmışdır.

Bütün bunlar sizin işğalınızın nəticəsidir. Bu, sizin qonşu ölkəyə qarşı yürütdüyünüz siyasətin nəticəsidir və işğala son qoyulmalıdır. Regionda sülhə nail olmaq üçün birinci şərt Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

**Aparıcı:** ***Prezident Əliyev, icazə verin müzakirəmizin əvvəlində verdiyim sualın digər tərəfini Sizə ünvanlayım. Bəziləri hesab edir ki, su sahəsində konkret əməkdaşlıq üzərində işin aparılması tərəflərin bir-birinə qarşı etimadını artıra bilər və bəzi digər məsələlərdə daha böyük əməkdaşlığın aparılması istiqamətində atılmış bir addım ola bilər. Sizcə, bu, doğrudurmu?***

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bir aydan da az müddət öncə Strasburqda Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən qətnamədə bu məsələ üzrə çox vacib elementə diqqət yönəldilir və xüsusilə su resurslarının idarə edilməsi ilə bağlı törətdiyi problemlərə görə Ermənistanın üzərinə məsuliyyət qoyulur. Buna görə, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün torpaqların işğaldan azad edilməsi prosesinə başlanılmalıdır. Etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq.

**Aparıcı:** ***Çox sağ olun!***

**AZƏRTAC**

# Ehtiramla yad edildilər



Vergilər Nazirliyinin yaradılmasının 16-cı ildönümü və vergi xidməti əməkdaşlarının peşə bayramı münasibətilə fevral ayının 11-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov başda olmaqla, nazirliyin və tabeli qurumların nümayəndələri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad olunub.

Daha sonra nazirliyin kollektivi Şəhidlər xiyabanını ziyarət ediblər. «Əbədi məşəl» abidəsi önünə əklil qoyulub, şəhid məzarlarının üzərinə al qərənfillər düzülüb.



# İsmayıllı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tövsiyələrə uyğun olaraq, vergilər naziri Fazil Məmmədov fevral ayının 12-də İsmayıllı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların rəhbərləri, sahibkarlar, rayon ziyalıları iştirak ediblər.

Görüşdə çıxış edən vergilər naziri Fazil Məmmədov dünyada baş verən proseslər, enerji və maliyyə bazarlarında yaranmış iqtisadi vəziyyət, bunun ölkəmizə təsirləri barədə danışıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin büdcə gəlirlərinin neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı işlər və atdığı qətiyyətli addımlar nəticəsində bütün dünyanı bürümüş qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirinin minimallaşdırılmasına nail olunduğunu vurğulayıb.

F.Məmmədov qeyd edib ki, bu gün Azərbaycan beynəlxalq aləmdə uğurla inkişaf etməkdə olan bir ölkə kimi qəbul edilir. Dövlətimizin başçısı İlham Əliyev dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərinin yüksək kürsülərindən çıxış edərək, ölkəmizin inkişaf təcrübəsi barədə danışır, dünyada gedən proseslərə Azərbaycanın baxışlarını, mövqeyini açıqlayır. Davosda keçirilən Dünya İqtisadi Forumunda istər «Yeni enerji tarazlığı» mövzusunda sessiyada, istərsə də dünya iqtisadi liderlərinin «2016-cı il üçün mütləq xarakterli tövsiyələr» mövzusunda qeyri-rəsmi toplantısında Prezident İlham Əliyevin çıxışları, Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və BMT-nin birgə təşkilatçılığı ilə keçirilən Suriya məsələsi ilə bağlı beynəlxalq konfransda iştirak üçün Azərbaycanın dövlət başçısının Londona dəvət olunması da ölkəmizin beynəlxalq aləmdə və iqtisadi münasibətlərdə fəal tərəfdaşlardan biri olduğunun, dünyada sabitliyin bərqərar olmasına töhfələr verə biləcəyinin dünya birliyi tərəfindən qəbul edilməsinin təzahürüdür.

Vergilər naziri iqtisadi inkişaf dinamikasının saxlanması, yerli istehsalın dəstəklənməsi, sahibkarlığa geniş dövlət dəstəyinin göstərilməsi, onlara verilmiş vergi güzəştləri, vətəndaşların sosial rifahının yaxşılaşdırılması, əhalinin yaranmış yeni iqtisadi vəziyyətdən zərər çəkməməsi üçün Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə görüş iştirakçılarına geniş məlumat verərək, mövcud iş yerlərinin ixtisarına yol verilməməsinin və yeni iş yerlərinin yaradılmasının qarşıda duran ən mühüm vəzifələrdən olduğunu bildirib.

Açıq dialoq şəraitində keçən görüşdə F.Məmmədov ölkə Prezidenti tərəfindən 2016-cı ildə iqtisadi şaxələndirmə, regional inkişaf, qeyri-neft sektorunun inkişafının prioritet istiqamətlər kimi müəyyənləşdirildiyini iştirakçıların nəzərinə çatdırıb. Bildirilib ki, Azərbaycan hökumətinin məqsədi ölkədə sahibkarlığın inkişafı, qeyri-neft və büdcə daxilolmalarında payının artırılmasına, sahibkarlıq fəaliyyətində canlanmaya nail olmaqdır. Bu mənada, 2016-cı ildə regionlarda sahibkarlığın inkişafına xüsusi önəm veriləcəkdir.

Vergilər naziri yerli sahibkarlara müraciətlə onları öz fəaliyyətlərini genişləndirməyə, rayonun potensialından maksimum istifadə etməyə, yerli istehsalla bağlı layihələrə sərmayə yatırmağa çağırıb. Qeyd olunub ki, İsmayıllı rayonunda kənd təsərrüfatı və turizmin daha da sürətlə inkişaf etməsi üçün böyük potensial mövcuddur. Rayonda iqtisadi inkişafı təmin etmək, yerli gəlirləri artırmaq istiqamətində işlər görülür. Bununla belə, İsmayıllının perspektiv inkişafını sürətləndirəcək layihələrin həyata keçirilməsi zəruridir. Rayonda müasir sənaye müəssisələrinin, yeni sahibkarlıq subyektlərinin açılması, investorların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması istiqamətində səyləri artırmaq lazımdır.



Nazir 2015-ci ildə İsmayıllıda 720 yeni iş yerinin, o cümlədən 495 daimi iş yerinin açıldığını, 2016-cı ildə rayonun Qalınçaq kəndində illik istehsal gücü 1000 ton olan quşçuluq fabrikinin, Diyallı kəndində ölkəmizdə ilk velosiped zavodunun, Xanəgah kəndində inşaat materialları zavodunun, şəhərdə tikiləcək kartof-çipsi istehsalı müəssisəsinin inşasının başa çatdırılacağının təqdirəlayiq olduğunu vurğulayıb.

F.Məmmədov bildirib ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkədə aqrar sahə daha da inkişaf etdirilməli, daxili istehsal artırılmalıdır. Bu baxımdan, İsmayıllıda da kənd təsərrüfatının inkişafının böyük perspektivləri vardır. O, məmnunluq hissi ilə qeyd edib ki, BMT-nin İnkişaf Proqramı və Avropa Birliyinin dəstəyi ilə rayonda aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı iki layihə həyata keçirilir. Bu layihələr çərçivəsində İsmayıllı şəhəri, Topçu, Qurbanəfəndi, Sumağallı, Diyallı, Yeniyol, Çəmənli kəndlərində istixanalar yaradılmış və yüksək keyfiyyətli tərəvəz məhsulları istehsal edilməkdədir. 2015-ci ildə rayonda 50-dən çox təsərrüfatda istixana sahələri yaradılıb və gələcəkdə onların sayının 100-ə çatdırılması nəzərdə tutulur. Keyvəndi kəndində 1500 başlıq heyvandarlıq kompleksində inşaat işləri davam etdirilir. Rayonun Qalınçaq kəndi ərazisində illik istehsal gücü 1000 ton olan hind toyuğu fabrikində inkubator sexi, vitaminli yem istehsal edən dəyirman quraşdırılacaq. Fabrik tam gücü ilə fəaliyyətə başladığı zaman burada 200-250 nəfər işlə təmin olunacaqdır.

İsmayıllının böyük taxılçılıq rayonu hesab olunduğunu vurğulayan F.Məmmədov rayon üzrə məhsul istehsalının əvvəlki illə müqayisədə 20%-dək artaraq 100 min tondan yuxarı olmasını müsbət qiymətləndirib. Rayonun tarixən böyük üzümçülük ənənələrinə malik olduğunu xatırladan nazir bu sahənin böyük gəlir gətirən və əməktutumlu sahə hesab olunduğunu, onun inkişaf etdirilməsinin rayon iqtisadiyyatına böyük gəlir gətirəcəyini və yeni iş yerləri yaradacağını qeyd edib. F.Məmmədov hazırda ümumi sahəsi 1000 hektara yaxın olan üzüm plantasiyalarının gələcəkdə genişləndirilməsi, bununla bağlı emal sənayesinin inkişafına nail olunması, mövcud istehsal güclərinin, xüsusilə də ixrac potensialının artırılmasının zəruriliyini vurğulayıb. İsmayıllının İvanovka kəndinin Nikitin adına kolxozunun bazasında aqroparkın yaradılması məsələsinə toxunan nazir bu işin 2016-cı ildə başa çatdırılması üçün imkanların mövcud olduğunu qeyd edib.

İsmayıllının Azərbaycanın əsas turizm istiqamətlərinə daxil olan bölgələri sırasında yer aldığını diqqətə çatdıran F.Məmmədov bu sahədə rayonun böyük potensiala malik olduğunu, turizmin dağ gəzintisi, ekoloji turizm, tarixi turizm, ailə turizmi kimi sahələrinin inkişafına sərmayə cəlb edilməsi istiqamətində səyləri artırmağın vacibliyini vurğulayıb.

Vergilər naziri yerli icra hakimiyyətini və bələdiyyələri sahibkarlarla partnyorluq münasibətlərini dərinləşdirməyə, onlara hərtərəfli yardım göstərməyə, sahibkarları isə öz növbəsində yeni iş yerləri yaratmağa, istehsal sahələrini genişləndirməyə, bütün bunlarla yanaşı, fəaliyyət göstərdikləri bölgələrdə öz sosial məsuliyyətlərini dərk etməyə çağırıb. O, İsmayıllı rayonunun dövlət büdcəsinin dotasiyasından asılılığının azaldılmasının vacibliyini də vurğulayıb.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov rayonun sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həlli istiqamətində görülən işlərdən danışaraq, yaxın illərdə büdcədən ayrılan dotasiyaları tamamilə aradan qaldırmağa çalışacaqlarını bildirib.

Görüşdə çıxış edən sahibkarlar və ictimaiyyət nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirib, İsmayıllı rayonunda yeni istehsal sahələrinin və iş yerlərinin yaradılması, sahibkarlara kredit resurslarının ayrılması, kənd təsərrüfatı məhsullarının satışı və xarici bazarlara çıxarılmasında sahibkarlara köməklik göstərilməsi və s. ilə bağlı təkliflərlə çıxış ediblər.

Vergilər naziri Fazil Məmmədov bütün müraciət və təkliflərin nəzərə alınacağını bildirib.




# IOTA İcraiyyə Şurasının 100-cü iclası keçirilib

IOTA-nın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasının Parisdə keçirilmiş 100-cü iclasında Şuraya üzv dövlətlərin (Niderland Krallığı, Avstriya, Azərbaycan, Çexiya, Danimarka, Fransa, Sloveniya, İspaniya və Rumıniya) vergi administrasiyalarının və IOTA Katibliyinin nümayəndələri iştirak etmişlər.

İclasda təşkilatın üç aylıq (noyabr 2015 - yanvar 2016) fəaliyyəti barədə hesabat, 2017-ci il üçün iş planı, prioritet sahələrin müəyyən edilməsi, «Vergi administrasiyalarında məlumatların tətbiq olunması və təhlili» layihəsi, nəşriyyat və kommunikasiya strategiyası, beynəlxalq vergitutma sahəsində fəaliyyət göstərən aparıcı təşkilatlar ilə əməkdaşlığın gücləndirilməsi, daxili qaydalara yenidən baxılması kimi məsələlər müzakirə edilmişdir.

Tədbirdə vergilər nazirinin müşaviri, Beynəlxalq münasibətlər və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəisi Ələkbər Məmmədov iştirak etmişdir.

# Vergi ödəyicilərinin məlumatlandırılması aktualdır

Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində vergi ödəyicilərini məlumatlandırmaq və vergi sistemi haqqında təsəvvürü təkmilləşdirmək məqsədilə beynəlxalq seminar keçirilmişdir.

Müzakirələrdən alınan nəticələrə görə, vergi ödəyicilərinin məlumatlandırılması üçün sosial media daha effektiv kanal hesab edilməli, maksimum az xərc çəkilən resurslardan istifadə artırılmalı, materialların yenidən dizaynı və kampaniya xarakterli mesajların hazırlanması zamanı beynəlxalq təcrübələrdən istifadə edilməli, effektiv marketinq və təbliğat-təşviqat fəaliyyəti artırılmalıdır.

Seminara Azərbaycanla yanaşı, Avstriya, Bolqarıstan, Xorvatiya, Çexiya, Estoniya, Monteneqro, Rumıniya, Slovakiya, İspaniya, Albaniya, Finlandiya, Gürcüstan, İrlandiya, İtaliya, Latviya, Litva, Polşa, Moldova, Norveç, Portuqaliya, Rusiya və İsveçrənin də nümayəndələri qatılmışlar.

Tədbirdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Xidmət mərkəzi şöbəsinin rəisi Nicat Mehdiyev iştirak etmişdir.

V Vergi Forumu

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

*Fevralın 10-da Bakı Biznes Mərkəzində Vergilər Nazirliyinin təşkilatçılığı ilə «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» V Vergi Forumu keçirilmişdir. Forumda Prezident Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin, digər dövlət orqanlarının, Milli Elmlər Akademiyasının müvafiq strukturlarının, Dünya Bankının, yerli bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak etmişlər.*




***Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov tədbiri açaraq giriş nitqi ilə çıxış etmişdir.***

- Hörmətli forum iştirakçıları!

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi strategiyaya əsaslanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz uğurla inkişaf edir, dünyada cərəyan edən proseslərə, zamanın yeni çağırışlarına adekvat cavablar verir. Bu davamlı inkişafın və iqtisadi dayanıqlılığın təmin olunmasının əsasında ilk növbədə Azərbaycanda yaradılmış siyasi sabitlik, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülmüş tədbirlər dayanır.

Dünya bazarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, 2015-ci ildə ölkəmizdə ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi 8,4 faiz artıb. Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayədir. Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Bu, MDB məkanında ən yaxşı göstəricidir.



Azərbaycanın beynəlxalq mövqeyi ildən-ilə möhkəmlənir. Cənab İlham Əliyevin dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərinin yüksək kürsülərindən çıxış edərək ölkəmizin inkişaf təcrübəsi barədə danışması, dünyada cərəyan edən proseslərə Azərbaycanın baxışlarını, mövqeyini açıqlaması ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırır. Davosda keçirilən Dünya İqtisadi Forumunda istər «Yeni enerji tarazlığı» mövzusundakı sessiyada, istərsə də dünya iqtisadi liderlərinin «2016-cı il üçün mütləq xarakterli tövsiyələr» mövzusundakı qeyri-rəsmi toplantısında cənab İlham Əliyevin çıxışları, Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və BMT-nin birgə təşkilatçılığı ilə keçirilən Suriya məsələsi ilə bağlı beynəlxalq konfransda iştirak üçün Azərbaycan Prezidentinin Londona dəvət olunması da ölkəmizin dünyada sabitliyin bərqərar edilməsinə töhfələr verə biləcək fəal tərəfdaşlardan biri olduğunun dünya birliyi tərəfindən qəbul edilməsinin təzahürüdür.

Biz hamımız son vaxtlar dünyanın bir çox ölkələrində, o cümlədən bizimlə qonşu olan dövlətlərdə çox ciddi proseslər getdiyinin şahidiyik. Dünya enerji bazarında qeyri-sabitliyin hökm sürməsi, bir ildə neftin qiymətinin 4 dəfəyədək aşağı düşməsi, təbiidir ki, bütövlükdə Azərbaycana, o cümlədən Vergilər Nazirliyinin xətti ilə büdcə daxilolmalarına da müəyyən mənfi təsir göstərsə də, 2015-ci il ərzində proqnoza 100,1 faiz əməl olunub, büdcəyə 7 milyard 118,2 mln. manat vəsaitin daxil olması təmin edilib. Ümumi vergi daxilolmalarında qeyri-neft sektorunun xüsusi çəkisi 70%-dən çoxdur. Azərbaycanın bölgələrində həyata keçirilmiş uğurlu iqtisadi islahatlar, vergi inzibatçılığının səmərəliliyinin artırılması istiqamətində görülmüş tədbirlər nəticəsində regionlar üzrə vergi daxilolmaları son 5 ildə təxminən 2 dəfə artıb, paytaxtdankənar şəhər və rayonlar üzrə dövlət büdcəsinə 622,1 milyon manat vəsait səfərbər edilib.

Azərbaycan hökumətinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı 2016-cı ildə ciddi iqtisadi islahatlar aparılacağını bəyan edib, dünyada və regionda baş verən hadisələrin fəsadlarının ölkəmizə təsirini minimuma endirmək üçün yaranmış yeni iqtisadi şəraitdə daha səmərəli işləməyi və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları hesabına təmin etməyi tapşırıb. 2016-cı il üçün prioritetlər də artıq bəyan edilib: iqtisadi şaxələndirmə, regional inkişaf, qeyri-neft sektorunun inkişafı.

Ötən ilin sonlarında sahibkarlığın inkişafı ilə bağlı verilən mühüm qərarlar biznes mühitinin yaxşılaşdırılması istiqamətində yeni mərhələnin başlanğıcı olub. Sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, artıq lisenziyalar müddətsiz verilir. Lisenziyalaşdırmaya görə ödənilən dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində verilməsinə və «Elektron lisenziya» portalının yaradılmasına başlanılıb.

«Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi və bu sahədə dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı vergi yoxlamalarına şamil edilməsə də, Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində illik dövriyyələri 200 min manatdan aşağı olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarını müvəqqəti olaraq dayandırıb. Əmək müqavilələrinin bağlanmasına, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması məqsədləri istisna olmaqla, digər operativ nəzarət tədbirləri də məhdudlaşdırılıb. Bu qərar ölkədə kiçik və orta sahibkarlıq sektorunda fəaliyyət göstərən 70 minə yaxın vergi ödəyicisini əhatə edib.

2016-cı ilin 1 yanvar tarixindən Vergi Məcəlləsinə yeni dəyişikliklər qüvvəyə minib. Bu dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına, sahibkarlıq subyektlərinin sərəncamında daha çox vəsaitin qalmasına xidmət edir.

Bu mövzu ilə bağlı forumda ayrıca təqdimat olacağını nəzərə alaraq, üzərində geniş dayanmaq istəmirəm. Bircə onu nəzərinizə çatdırım ki, Azərbaycanın mövcud vergi qanunvericiliyi sahibkarlıq fəaliyyəti üçün cəlbedicidir, vergi yükü rəqabətə davamlıdır.

Ölkəmizin vergi xidməti əsaslı modernizasiya prosesindən keçib, vergi sisteminin geniş diapazonlu texniki imkanlara malik texnoloji bazası yaradılıb. Bu gün Azərbaycanın vergi sistemi dünyanın ən qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir. Hazırda Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə 62 növ elektron xidmət göstərilir. Bu, respublikamızda dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən ən geniş elektron xidmətlər toplusudur. Sahibkar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet üzərindən yerinə yetirə bilir, vergi bəyannamələrinin təqdim edilməsi, vergi öhdəliklərinin icrası tamamilə elektronlaşdırılıb. Vergi ödəyicilərinin təxminən 90 faizi vergi bəyannamələrini elektron formada təqdim edir.

Məlum olduğu kimi, dövlət başçısının fərmanına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası yaradılıb, buna uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da Apelyasiya şuralarının yaradılmasına başlanılıb.

Vergilər Nazirliyində vergi ödəyicilərinin mübahisələndirdiyi məsələlərin məhkəməyə müraciət olunmadan vergi orqanları səviyyəsində həll edilməsi və şikayətlərə baxılmasına nəzarətin gücləndirilməsi məqsədilə yaradılmış Vergi Apelyasiya Şurasının Əsasnaməsi «Mərkəzi icra hakimiyyəti orqanlarının Apelyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə»yə uyğunlaşdırılıb.

Ölkəmizin inkişafı üçün müəyyən edilmiş vəzifələrin icrası istiqamətində görülən işlərin davamı olaraq, vergi orqanları tərəfindən nəzarət funksiyalarının həyata keçirilməsi mexanizmlərinin müasir tələblərə uyğun şəkildə daha da təkmilləşdirilməsi, əhalidə yüksək vergi mədəniyyəti və intizamının formalaşdırılması sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə son iki ayda nazirlikdə bir sıra struktur və kadr dəyişiklikləri aparılıb.

Ərazi vergi orqanlarının fəaliyyətinin səmərəliliyini yüksəltmək, regionlar üzrə vergi daxilolmalarının artırılmasını təmin etmək üçün nazirlikdə yeni baş idarə yaradılıb. Vergilər Nazirliyi artıq iki ildir ki, vergi ödəyiciləri üzrə sahəvi e-audit texnologiyaları əsasında vergi yoxlamaları keçirir və bu yoxlamalar nəticəsində büdcəyə 100 mln. manata yaxın əlavə vergi və maliyyə sanksiyaları hesablanıb, hesablanmış məbləğlər tam həcmdə büdcəyə ödənilib. Gələcəkdə e-auditin əhatəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Cari ildə biz sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, vergi mexanizmlərinin daha da sadələşdirilməsi, yüksək rəqabət qabiliyyətli, yeni texnologiyalara əsaslanan innovasiya yönümlü bilik iqtisadiyyatının yaradılması sahəsində vergi orqanlarının üzərinə düşən bütün vəzifələrin uğurla reallaşdırılması istiqamətində işlərimizi davam etdirəcəyik. Nağdsız ödənişlərin tətbiqinin genişləndirilməsi, İT-təməlli və bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və yüksək səmərəliliyinin təmin olunması vergi orqanlarının qarşısında duran ən mühüm vəzifələrdəndir.

Ölkədə yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq, cari ildə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə vergilər nazirinin rəhbərlik etdiyi xüsusi Komissiya yaradılmışdır və Komissiya tərəfindən vergi inzibatçılığının əsas istiqamətləri üzrə təşkil olunmuş işçi qrupların təklifləri əsasında vergi sistemində aparılması zəruri olan islahatlarla bağlı çox ciddi işlər həyata keçirilir.

Dövlət öz üzərinə düşən vəzifələri yerinə yetirməyə, sahibkarlığın inkişafı üçün mövcud biznes mühitini daha da yaxşılaşdırmağa, vətəndaşlarımızı dünyadakı böhranların neqativ təsirlərindən qorumağa, ölkəmizin sosial-iqtisadi inkişafının sabitliyinin təmin olunmasına çalışır. Bu strategiyanın davamlı olması üçün dövlət büdcəsinin gəlirləri artmalıdır və təbiidir ki, bu işdə biznes strukturları və fərdi sahibkarların da üzərinə mühüm vəzifələr düşür. Sahibkarlar vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməli, uçotlarını düzgün aparmalı, vergidən yayınma hallarına yol verməməlidirlər.

Ölkə başçısı həm dövlət orqanları, həm də sahibkarlar qarşısında çox konkret vəzifələr qoyub. Bizim borcumuz isə bu vəzifələrin yerinə yetirilməsini təmin etməkdir.

## Əlavə gəlir mənbələrinin formalaşdırılması imkanları səfərbər edilməlidir

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə*** Vergi Forumunun ölkəmizdə vergi sisteminin müasir vəziyyəti, qarşıda duran vəzifələr və inkişaf perspektivləri ilə bağlı vətəndaş cəmiyyəti və işgüzar dairələrlə açıq dialoqun qurulması istiqamətində mühüm addım olduğunu bildirmişdir. Qeyd etmişdir ki, vergi siyasəti maliyyə sabitliyinin qorunmasına, ölkəmizin iqtisadi təhlükəsizliyi və inkişafı ilə bağlı müəyyən olunmuş hədəflərin reallaşmasına bilavasitə təsir göstərir: «Hazırkı şəraitdə qlobal sarsıntıların artdığı bir vaxtda Azərbaycanın gələcək uzunmüddətli inkişafı üçün iqtisadi hədəflər müəyyənləşib. Strateji prioritetləri iqtisadi dayanıqlılığın qorunub saxlanması və iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektoruna əsaslanan inkişafın təmin edilməsi, regionlarda əlavə dəyərin yaradılması təşkil edir. Dövlət başçısının bəyan etdiyi kimi, iqtisadiyyat digər əlavə mənbələr hesabına inkişaf etdirilməlidir. Bunun üçün kifayət qədər resurslar vardır. Qarşıdakı mərhələdə qeyri-neft sektorundan büdcəyə daxilolmaların həcminin artırılması vacibdir və burada Vergilər Nazirliyinin də üzərinə mühüm vəzifələr düşür».

Vergi orqanlarının fəaliyyətini təqdir edən akademik bildirmişdir ki, ötən illərin təcrübəsi vergi orqanlarının xətti ilə dövlət büdcəsinə qeyri-neft sektoru üzrə yığımların artdığını göstərir. Son 5 ildə nazirlik bu istiqamətdə əhəmiyyətli işlər görmüşdür: «Bununla yanaşı, məşğulluq probleminin həlli, bölgələrdə yeni müəssisələrin və iş yerlərinin yaradılması, əlavə gəlir mənbələrinin formalaşdırılması imkanları səfərbər edilməlidir. Bunun üçün əsas amillərdən biri milli iqtisadiyyatın daxili resurslar hesabına formalaşdırılması, büdcə gəlirlərində regionların və milli ixracatın payının artırılmasıdır. Azərbaycan gələcəyə ümidlə baxır və inanıram ki, bu tədbirləri səmərəli şəkildə həyata keçirməklə iqtisadi dayanıqlılığımızı və inkişafımızı təmin edəcəyik».

## Hökumətin yürütdüyü iqtisadi siyasət düzgün istiqamətdədir

***Dünya Bankının Azərbaycan üzrə təmsilçisi xanım Larisa Leşşenko*** vergi orqanı işçilərini peşə bayramı münasibətilə təbrik edərək, təmsil etdiyi qurum tərəfindən vergi sistemində aparılan islahatların müsbət qiymətləndirildiyini bildirmişdir. O, dünya iqtisadiyyatında baş verən mürəkkəb proseslərə də toxunmuş, neftin ucuzlaşmasının bir sıra ölkələrin iqtisadiyyatını sınağa çəkdiyini diqqətə çatdırmışdır: «Düşünmürük ki, neftin qiyməti yaxın zamanda əvvəlki səviyyəyə qayıtsın. Neft gəlirlərindən asılı vəziyyətə düşməmək üçün iqtisadiyyatın dayanıqlılığını artırmaq və şaxələndirilməsini təmin etmək vacibdir. İqtisadiyyat da insan orqanizmi kimidir: hər hansı xəstəliyə qarşı güclü immunitet olmalıdır. Azərbaycan hökuməti öz immun sistemini, dözümlülüyünü artırmaq üçün ciddi addımlar atmalıdır. Dünyadakı çətin iqtisadi şəraitə baxmayaraq, ötən ilin birinci yarısında Azərbaycan ciddi iqtisadi artıma nail olmuş, 5,7% iqtisadi artım qeydə alınmışdır. Amma ilin ikinci yarısında neftin kəskin ucuzlaşması nəticəsində artım tempi azalmışdır. Qeyri-neft sektoru neft sektoru ilə müqayisədə daha sürətli templə artmışdır ki, bu da təqdirəlayiq haldır. Son illərdə bu sahənin payının yüksəlməsi onu göstərir ki, hökumətin yürütdüyü iqtisadi siyasət düzgün istiqamətdədir».

L.Leşşenko azad biznesə və sahibkarlığın inkişafına dəstək məqsədilə vergi sahəsində son islahatları yüksək qiymətləndirmişdir. O, sadələşdirilmiş vergi rejiminin genişləndirilməsini, sahibkarlar üçün dövriyyənin 120 mindən 200 minə çatdırılmasını, tikinti, daşınmaz əmlak, ticarət və xidmət sahələrində əlavə seçim imkanlarını və digər tədbirləri müsbət addım kimi dəyərləndirərək, bunun qeyri-neft gəlirlərinin artmasına təsir göstərəcəyinə inandığını bildirmişdir.

**Davamı 4-cü səhifədə**

## V Vergi Forumu

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

**Əvvəli 3-cü səhifədə**

Bununla yanaşı, qeyri-neft sektorunda əlavə yığımlar üçün mənbələrin olduğunu və vergi orqanlarının bu sahələrə diqqət artırmalarını tövsiyə etmişdir. Nağd dövriyyənin mövcud olduğu sahələrin nağdsızlaşdırılmasını, bu istiqamətdə görüləcək işlərin də qeyri-neft sektorunun inkişafına müsbət təsir edə biləcəyini vurğulamışdır.

L.Leşşenko qeyd etmişdir ki, Dünya Bankının hesablamalarına görə, yaxın gələcəkdə neftin qiyməti aşağı səviyyədə qalacaqdır: «Neftin qiymətinin aşağı düşməsi nəticəsində yaranan qeyri-sabitlik şəraitində ayrı-ayrı ölkələr öz iqtisadiyyatlarını qorumaq üçün müxtəlif tədbirlər həyata keçirirlər. İqtisadiyyatın dayanıqlılığını təmin etmək, xarici və daxili risklərə qarşı müqaviməti artırmaq lazımdır. Neft gəlirlərindən asılı vəziyyətə düşməmək üçün islahatların dərinləşdirilməsi vacibdir. Mövcud vəziyyət çətinliklər yaratsa da, dayanıqlı inkişaf üçün yeni imkanlar da açır».

Xanım Leşşenko bildirmişdir ki, Dünya Bankı islahatların həyata keçirilməsində və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində Azərbaycana dəstəyini bundan sonra da davam etdirəcək.

### Sahibkarlar vergi uçotunun və mühasibat işlərini düzgün aparmalıdırlar



***Vergilər Nazirliyinin 1 saylı Vergilər Departamentinin rəisi Natiq Şirinov*** çıxışında «Vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətləri» mövzusuna toxunmuşdur: «Əsas istiqamətlər iqtisadiyyatın sahələri üzrə əlverişli biznes-investisiya mühitinin qanunvericilik yolu ilə təşviq edilməsi, vergitutma bazasının genişləndirilməsi və vergi uçotunun təkmilləşdirilməsindən ibarətdir. Vergi qanunvericiliyi yolu iqtisadiyyatın müxtəlif sahələri üzrə təşviqetmə mexanizmləri son illər öz müsbət təsirini göstərmişdir. 1999-cu ildən kənd təsərrüfatı sahəsinin vergidən azad olunmasını xüsusi qeyd etmək olar. Bu addım regionların inkişafında mühüm rol oynamışdır. Bundan başqa, sənaye texnoparkları 7 il müddətinə vergidən azad edilmişdir ki, bu da sənayenin stimullaşdırılmasına və bu sahəyə investisiya qoyuluşlarının artmasına səbəb olmuşdur. 2016-cı il yanvarın 1-dən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş vergi ödəyicisi olmaq üçün seçim imkanı verilmişdir. Bununla yanaşı, ticarətin 6 faiz, xidmət sahələri və ictimai iaşənin isə 8 faiz sadələşdirilmiş vergiyə cəlb olunması üçün seçim hüququ verilmişdir ki, bu da kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar deməkdir».

Qarşıda duran hədəflər barədə danışan Natiq Şirinov dövlət başçısının tapşırığına uyğun olaraq, biznes mühitinin vergi siyasəti yolu ilə yaxşılaşdırılması istiqamətində əlavə tədbirlərin görüldüyünü və davam etdirilən islahatlar zamanı biznes ictimaiyyətinin təkliflərinin nəzərə alınacağını diqqətə çatdırmışdır: «Əsas tədbirlərdən biri iqtisadiyyatın sahələri üzrə əlverişli biznes-investisiya mühitinin qanunvericilik yolu ilə təşviq edilməsidir. Artıq bu sahədə yeni qanun layihəsi hazırlanıb və investisiya təşviqi sənədini almış şəxsin vergidən azad edilməsi nəzərdə tutulur».

Maliyyə sektorunun təşviqi siyasətinə toxunan N.Şirinov qeyd etmişdir ki, bu istiqamətdə əsas tədbirlərdən biri fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin və emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont və faiz gəlirlərinin vergidən azad edilməsidir: «Vergitutma bazasının genişləndirilməsi üçün kifayət qədər imkanlar mövcuddur. Qarşıda duran hədəflərdən biri kimi, vergi qanunvericiliyində güzəşt və azadolmaların monitorinqi aparılacaq, iqtisadiyyatın stimullaşdırılmasına xidmət etməyən güzəştlər aradan qaldırılacaq, əlavə olaraq yeni güzəşt sahələri dərindən təhlil ediləcək».

Vurğulanmışdır ki, e-ticarətin vergiyə cəlb olunması Vergilər Nazirliyinin diqqətdə saxladığı məsələlərdəndir və dünyada İKT-nin geniş tətbiqi bu sahənin inkişafını zəruri edir. Bundan əlavə, nağdsız hesablaşmaların stimullaşdırılması da prioritet olaraq qalır.

Prezident İlham Əliyevin vergi uçotunun təkmilləşdirilməsi haqqında tapşırıqlarının icrası istiqamətində görüləcək işlər barədə məlumat verən məruzəçi bildirmişdir ki, e-qaimənin tətbiqi, e-mühasibat uçotunun və e-auditin tətbiqinin genişləndirilməsi nəzərdə tutulur: «Bu məsələdə sahibkarların üzərinə böyük məsuliyyət düşür, onlar qanunlara hörmət etməli, vergi uçotunu və mühasibat işlərini düzgün aparmalı, vergilərin vaxtında və tam olaraq büdcəyə ödənilməsini təmin etməlidirlər».

### Mövcud vergi siyasəti qeyri-neft sektorunun inkişafını stimullaşdıracaq



***İqtisadiyyat Nazirliyinin Strateji planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri Yalçın Əzizov*** «Vergi qanunvericiliyində dəyişikliklərin Azərbaycan iqtisadiyyatına töhfəsi» mövzusunda çıxış edərək bildirmişdir ki, Azərbaycanın vergi sistemində aparılan kompleks islahatlar, sahibkarlıq və iş adamları üçün əlverişli biznes mühitinin yaradılması, iqtisadi inkişafı stimullaşdıran çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi dövlət büdcəsinə daxilolmaların artması ilə nəticələnmişdir: «Görülmüş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə 2015-ci ilin yekunlarını Vergilər Nazirliyinin yaradıldığı 2000-ci ilin göstəriciləri ilə müqayisə etdikdə, vergi orqanlarının xətti ilə büdcəyə daxilolmaların 13,9 dəfə, o cümlədən qeyri-dövlət sektoru üzrə 24,1 dəfə, qeyri-neft-qaz sektoru üzrə 16,8 dəfə, regionlar üzrə 15,6 dəfə artdığını müşahidə etmək olar».

Qeyri-neft sahələrinin, regionların və sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə qeyd edilmişdir ki, ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar əhəmiyyətli şəkildə liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi təkmilləşdirilmiş, sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış, elektron xidmətlərin sayı genişlənmişdir. Lisenziya tələb edən fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təsdiq edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 50 faiz azaldılmış, o cümlədən indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyaların verilməsi müddəti isə 15 iş günündən 10 günə endirilmişdir.

Y.Əzizov son illərdə ölkəmizdə iqtisadiyyatın bir çox sahələrində vergi güzəştlərinin iqtisadi inkişafa töhfə verdiyini, vergi ödəyiciləri üçün tətbiq olunan sadələşdirilmiş vergi sisteminin əhatə dairəsinin genişləndirildiyini vurğulamış, bu islahatların inzibatçılığın sadələşdirilməsinə və ödəyicilərin vergi yükünün azaldılmasına, həmçinin vergi öhdəliklərinin yerinə yetirilməsi səviyyəsinin artırılmasına müsbət təsir edəcəyinə əmin olduğunu demişdir. Bildirmişdir ki, «Azərbaycan Respublikası Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» qanun layihəsinin qəbulu qeyri-neft ixracının artmasına müsbət təsir edəcəkdir: «Azərbaycanın dövlət büdcəsi gəlirlərinin formalaşmasının yaxın illərdə əsasən qeyri-neft sektorunun hesabına təmin edilməsi əsas məqsədlərdəndir. Qeyri-neft sektorundan daxilolmaların büdcədə xüsusi çəkisinin artmasında vergilərin rolu olduqca böyükdür. Növbəti illərdə də həyata keçiriləcək vergi siyasəti, müasir çağırışlara uyğun olaraq qeyri-neft sektorunun inkişafını stimullaşdırmaqla, müəyyən edilmiş hədəflərə nail olunmasına kömək göstərəcəkdir».

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında rəqabətqabiliyyətli və səmərəli iqtisadiyyatın qurulması istiqamətində vergi sisteminin təkmilləşdirilməsi üçün iki mühüm məqsədin müəyyənləşdirildiyi diqqətə çatdırılmışdır: «Bunlardan birincisi, iqtisadi sistemin rəqabət qabiliyyətini artırmaq üçün tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidin təmin olunması, ikincisi isə əlverişli investisiya mühitinin formalaşdırılması üçün vergi dərəcələrinin optimallaşdırılmasıdır. Aktiv vergi siyasətində vergi büdcənin əsas maliyyə mənbəyi olmaqla bərabər, biznes mühitinin də inkişafının mühüm stimullaşdırıcı alətinə çevrilir».

### Vergi daxilolmaları maksimal dərəcədə avtomatlaşdırılmışdır



***Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdir müavini Fikrət Şirinov*** «Vergi islahatlarının dövlət büdcəsinin formalaşmasına təsiri» mövzusunda çıxış etmişdir. Bildirmişdir ki, qlobal iqtisadiyyatda cərəyan edən proseslərin yaratdığı yeni mühitə, Azərbaycanın yerləşdiyi regionda geosiyasi gərginliyin artmasına baxmayaraq, 2015-ci ildə ölkə iqtisadiyyatının artımı, büdcə-fiskal dayanıqlığı təmin edilmişdir. Ümumi daxili məhsulun 1,1 faiz artımı əvvəlki illərdəki artımla müqayisədə az olsa da, mürəkkəb xarici iqtisadi mühit, ölkəmizin makroiqtisadi sabitliyinə artan təzyiqlər və əhəmiyyətli dərəcədə azalan xarici valyuta gəlirləri şəraitində əldə edilmişdir. 2015-ci ildə dövlət büdcəsi gəlirləri proqnozu 88,2 faiz icra olunaraq 17,2 milyard manat olmuşdur. Vergilər Nazirliyinin xətti ilə təmin olunan daxilolmalar 100,1 faiz səviyyəsində icra olunmuşdur. Dövlət Neft Fondundan transfertlər çıxılmaqla vergi orqanları dövlət büdcəsinə təmin edilmiş daxilolmaların büdcə gəlirlərində xüsusi çəkisi 78,9 faiz təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə 1 faiz bəndi çoxdur. Neft qiymətlərinin kəskin aşağı düşdüyü bir şəraitdə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə qeyri-neft sektoru üzrə daxilolmalar 4 milyard 812 mln. manat proqnoza qarşı 5 milyard 30 mln. manat və ya 220 mln. manat çox, 2014-cü illə müqayisədə 724 mln. manat və ya 16,8 faiz çox icra edilmişdir. Vergi orqanlarının xətti ilə təmin edilən qeyri-neft sektoru üzrə daxilolmaların ümumi daxilolmalarda xüsusi çəkisi 55,8 faiz, Vergilər Nazirliyinin xətti ilə təmin edilən daxilolmalarda isə 70,1 faiz təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə, müvafiq olaraq, 8,3 faiz bəndi və 9,6 faiz bəndi çoxdur.

Son illər ərzində dövlət tərəfindən qeyri-neft sektorunun inkişafı, ölkənin ixrac potensialının artırılması ilə bağlı bir sıra mühüm qərarların qəbul edildiyini, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin də həmin qərarların davamı kimi qiymətləndirən F.Şirinov bu dəyişikliklərin büdcə daxilolmalarının artırılmasından çox, vergi ödəyicilərinin üzərinə düşən vergi yükünün azaldılmasına, vergi uçotunun sadələşdirilməsinə yönəldildiyini vurğulamışdır.

Son dövrlərdə regionların inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində respublikanın şəhər və rayonlarının vergi potensialının artmasına diqqət çəkilərək qeyd edilmişdir ki, 2015-ci ildə, Bakı şəhəri istisna olmaqla, respublikanın rayon və şəhərləri üzrə gəlirlər 593,4 mln. manat təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə isə 18,9 faiz artım deməkdir. Yerli gəlirləri hesabına xərclərini tamamilə ödəyən Sumqayıt, Abşeron, Mingəçevir, Şirvan və İmişli rayon və şəhərlərinə 2016-cı ildən Naftalan şəhəri də əlavə olunmuşdur. Vergi daxilolmalarının uçotu sahəsində də uğurlar var: «Xəzinədarlığın İnformasiya İdarəedilməsi Sistemi yaradılmış, vergi daxilolmaları maksimal dərəcədə avtomatlaşdırılmış və «Elektron hökumət» çərçivəsində digər dövlət qurumları ilə inteqrasiya edilmişdir. Vergi daxilolmalarının avtomatik emalı hər iş gününün sonunda bütün vergi daxilolmalarının elektron şəkildə qəbul olunaraq, avtomatik emal edilməsini və Vergilər Nazirliyinə ötürülməsini təmin edir. Hazırda bütün büdcə və büdcədənkənar dövlət fondlarının daxilolmalarının avtomatik emalı həyata keçirilməkdədir».

### Vergi orqanları ilə ali təhsil müəssisələri arasında əməkdaşlıq dərinləşdirilməlidir

***Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov*** çıxışında diqqəti kadr hazırlığı məsələlərinə yönəltmişdir: «Müasir dünya təcrübəsinə nəzər salsaq, vergi sahəsində kadr hazırlığının xidmətəqədər və xidmətdaxili olmaqla iki mərhələdə aparıldığını müşahidə etmək mümkündür. Xidmətdaxili hazırlıq vergi orqanı işçilərinin müvafiq vəzifələrdə çalışdıqları dövr ərzində həyata keçirilir. Azərbaycanda Vergilər Nazirliyi bu prosesi Tədris Mərkəzində müxtəlif milli və beynəlxalq treyninq proqramları vasitəsilə həyata keçirir. Vergi sahəsində kadr hazırlığının xidmətəqədər mərhələsi isə heç şübhəsiz ki, ali təhsil müəssisələrinin, universitetlərin üzərinə düşür».

Rektor qeyd etmişdir ki, əksər inkişaf etmiş ölkələrdə işçilər vergi orqanlarına rəqabətli şərtlərlə aparılan xüsusi imtahanlar vasitəsilə işə qəbul edilirlər. Bu zaman imtahanlarda iştirak edə bilmələri üçün namizədlər qarşısında digər tələblərlə yanaşı, ən azı 4 illik bakalavr təhsili verən dövlət idarəçiliyi, hüquq, iqtisadiyyat, maliyyə, menecment, sənaye mühəndisliyi, menecment mühəndisliyi kimi təhsil proqramlarından məzunluq tələbi qoyulur. İmtahanlarda isə namizədlərə əsasən maliyyə, iqtisadiyyat, hüquq və mühasibat elmlərinə dair suallar təqdim edilir: «Vergi sahəsində kadr hazırlığına işəgötürənlərin tələbləri kifayət qədər aydın olduğundan, bu sahədə kadr hazırlığı universitetlər üçün də nisbətən rahatdır. Dünyanın əksər universitetləri vergi orqanları üçün kadr hazırlığında yuxarıda qeyd edilən tələblərə əməl etməyə çalışırlar. Bu gün dünyanın nüfuzlu universitetlərində birbaşa «vergitutma» (taxation) ixtisası üzrə bakalavr hazırlığına çox nadir hallarda rast gəlinsə də, magistratura və doktorantura pillələrində ixtisas üzrə kadr hazırlığı geniş yayılmışdır. Məsələn, dünyanın nüfuzlu universitetlərindən biri kimi qəbul edilən Oksford Universitetində, Avropa məkanında iqtisadi yönümlü ali təhsil müəssisələri arasında birinci sırada yer alan London İqtisadiyyat Universitetində və digər tanınmış ali təhsil ocaqlarında magistratura təhsili pilləsində «vergitutma» ixtisası üzrə peşəkar kadr hazırlığı həyata keçirilir».

Ə.Muradov əsas məqsədin vergi orqanları ilə universitetlər arasında elmi müstəvidə əməkdaşlığın dərinləşdirilməsindən



ibarət olduğunu vurğulamışdır: «Təhsilin həm bakalavr, həm də magistratura pillələrində aparılan fundamental tədqiqatlar vergi mütəxəssislərinin peşəkarlıq səviyyəsinin artırılmasına xidmət etməklə yanaşı, həm də vergi siyasətinin iqtisadi reallıqlara uyğun qurulmasına şərait yaradır».

### Təcrübəli bazar iqtisadiyyatı ölkələrinə nisbətən Azərbaycanın iqtisadiyyatı daha liberaldır

***Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov*** «Dövlətin iqtisadiyyatı tənzimlənməsi səviyyəsinin ölçmə metodologiyası və alınmış nəticələr» mövzusunda çıxışında diqqəti dünya iqtisadi sistemlərindəki əsas təmayüllərə yönəldərək bildirmişdir ki, iqtisadi siyasətlə bağlı iki yanaşma mövcuddur: «Birinci qrupu təmsil edən iqtisadçılar hesab edirlər ki, dövlət iqtisadiyyata mümkün qədər az müdaxilə etməli, azad bazarın özünütənzimləmə mexanizmlərinə üstünlük verməlidir.

**Davamı 5-ci səhifədə**

## Qonaqlar Vergi Forumu haqqında

**Əli Məsimli, Milli Məclisin deputatı:**

- Dünya iqtisadi sistemində gedən proseslərin, kataklizmlərin bu gün Azərbaycana təsirini minimuma endirmək üçün maliyyə-kredit və vergi sahəsində ciddi islahatlar gedir. Bunun daha da dərinləşdirilməsinə ehtiyac var. Əsasən, büdcə islahatları aparmaq, maliyyə, vergi mexanizmləri vasitəsilə iqtisadiyyatın stimullaşdırılmasının, yerli istehsalın, neftdənkənar sahələrin genişləndirilməsi və ixrac imkanlarının artırılması istiqamətində işlər görmək lazımdır və bu forumda həmin sahələrlə bağlı maraqlı fikirlər, təqdimatlar səsləndirildi, layihələr və təkliflər irəli sürüldü.

**Serkan Selcuq, BASF Caspian şirkətinin direktoru:**

- Qlobal iqtisadi proseslər şəraitində Azərbaycan öz iqtisadiyyatını canlandırmaq üçün ciddi addımlar atmağa başlamışdır. Biz iş adamları dövlət səviyyəsində aparılan işləri, həyata keçirilən tədbirləri, inkişaf konsepsiyalarını görür və yüksək qiymətləndiririk. Xarici investor olaraq biz bunlara böyük dəyər veririk. Gələcək planlarımızda da Azərbaycanla güclü əlaqələr yaratmaq xüsusi yer tutur. Vergilər dövlət büdcəsi üçün çox əhəmiyyətli sahə, ölkənin ən önəmli gəlir qaynağıdır. Onun düzgün, ədalətli şəkildə yığılması və xərclənməsi millətin inkişafı üçün vacib məsələlərdəndir. Bu sahədə yenilikləri maraqla izləyirik. Bu baxımdan, Vergi Forumu ölkədə aparılan islahatları daha yaxşı anlamaq, maraqlı tərəflərlə fikir mübadiləsi aparmaq üçün bizə əlverişli imkan yaradır.

**Natəvan Məmmədova, Amerika Ticarət Palatasının icraçı direktoru:**

- Təmsil etdiyim qurum 300-ə yaxın şirkəti təmsil edir. Ölkəyə yatırılan investisiyaların 80%-i bizim qurumda təmsil olunan şirkətlərin payına düşür. Vergilər Nazirliyi ilə Palata arasında gözəl əməkdaşlıq münasibətləri formalaşıb. Nazirliyin ictimaiyyətə açıqlığını yüksək qiymətləndiririk. Palata hər il ənənəvi olaraq nazirliklə birlikdə vergi konfransı keçirir. Elə bu il yanvarın 18-də keçirilən son tədbirimiz də uğurlu oldu. Konfrans zamanı dövləti təmsil edən Vergilər Nazirliyi ilə sahibkarlar arasında yüksək səviyyəli səmimi dialoq şəraiti yarandı. Nazirlik tərəfindən hər il keçirilən Vergi Forumu da çox gözəl ənənədir. Bu gün Amerika Ticarət Palatasının 20 üzvü Palata adından burada iştirak edir, digər üzvlərimizsə nazirlik tərəfindən dəvət olunub. Biz əməkdaşlıq sahəsində atılan bu cür addımları yüksək dəyərləndiririk. Ölkə başçısının da qeyd etdiyi kimi, hazırda sahibkarlığın və özəl sektorun inkişafı xüsusi önəm daşıyır. Biz artıq postneft dövrünü yaşayırıq və bu mərhələdə dövlət büdcəsi qarşısında özəl sektorun yükü və öhdəlikləri daha da artmaqdadır. Bunun üçün sahibkarlığa münbit şərait yaradılmalı, onların problemləri dinlənilməli və bu kimi tədbirlər vasitəsilə müəyyən nəticələrə gəlinməlidir. Biz də bu sahədə aparılan son islahatları yaxından izləyir, öz fikir və təkliflərimizi veririk. Sahibkarlığın inkişafında ən önəmli, qurucu və qoruyucu bir dövlət orqanı olan Vergilər Nazirliyinə uğurlar arzu edirik.

**Səkinə İbrahimova, «Procter & Gamble» şirkətinin xarici əlaqələr üzrə meneceri:**

- Şirkətimiz dünya bazarında tələbat malları üzrə liderlərdən biri sayılır. Onu bazar kapitalının inkişafına və gəlirinə görə ABŞ-ın ən aparıcı şirkəti də adlandırmaq olar. Azərbaycanda artıq 15 ildən artıq fəaliyyət göstəririk. Bu gün ölkədə şirkətimizin 20-dən artıq brendi satışdadır. Vergilər Nazirliyinin şirkətimizi bu foruma dəvət etməsi bizim üçün çox önəmlidir. Bu, ən mühüm məsələlərin müzakirəsi üçün dövlət orqanı ilə biznes qurumunu bir araya gətirən səmərəli əməkdaşlıq platformasıdır. Ümid edirəm ki, Azərbaycandakı işimiz bundan sonra daha davamlı, uğurlu və nailiyyətlərlə dolu olacaq.

**Şahin Hüseynov, Şəkidəki «Karvansara» mehmanxana kompleksinin direktoru:**

- Bu günlər bizim üçün çox önəmlidir. Ölkə Prezidentinin sahibkarlığın inkişafı üçün müəyyənləşdirdiyi tədbirlər fəaliyyətimizi zamanın tələbləri səviyyəsində qura bilməyimiz üçün münbit zəmin yaradır.

V Vergi Forumu

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

**Əvvəli 4-cü səhifədə**

Digər qrup isə bazar fəsadlarının qarşısını almaq üçün dövlətin iqtisadiyyata fəal müdaxilə edərək onu tənzimləməli olduğu qənaətindədir. Hazırda hər iki yanaşma iqtisadiyyata tətbiq olunmaqdadır».



Qeyd edilmişdir ki, reytinq sıralamalarına əsasən, «yaxşı»-«pis», «irəlidə olan»-«geridə qalan» ölkələr yoxdur, iqtisadiyyatı fərqli olan dövlətlər var: «İqtisadiyyatın müxtəlif təmayüllü olması indeksi 7 subindeks üzrə hesablanır.

Bunlar aşağıdakılardır:

- dövlət maliyyəsi;
- sosial xərclər;
- qiymətlərin tənzimlənməsi;
- xarici ticarət; lisenziyalaşdırma;
- məşğulluğun tənzimlənməsi;
- minimum əməkhaqqı.

Dövlət maliyyəsi subindeksinə görə ən liberal iqtisadiyyat Sinqapurun, ən çox dövlət müdaxiləsi olan iqtisadiyyat isə Fransanındır. Azərbaycan dövlət maliyyəsi subindeksi üzrə 0,553 əmsalla iki qütbün təxminən mərkəzində yerləşir. Sosial xərclər subindeksi üzrə respublikamız dövlətin müdaxiləsi güclü olan qrupda yer alır. Qiymətlərin tənzimlənməsi subindeksinə görə ən liberal iqtisadiyyat Yeni Zelandiyanın, ən çox müdaxilə olunan iqtisadiyyat isə Rusiyanındır. Azərbaycan da iqtisadiyyata dövlətin müdaxiləsi olan qrupa aid edilir. Sinqapur xarici ticarətin tənzimlənməsi üzrə ən liberal iqtisadiyyata malik ölkə kimi qiymətləndirilir. Rusiya və Azərbaycan iqtisadiyyatında isə xarici ticarət əməliyyatları dövlət tərəfindən tənzimlənir. Lisenziyalaşdırma subindeksinə görə də respublikamızda dövlətin təsiri daha çoxdur. Əmək münasibətlərinin tənzimlənməsində ən liberal ölkə ABŞ, ən mühafizəkar ölkə İsveçdir. Azərbaycan bu subindeks üzrə liberal dövlətlər sırasındadır. Minimum əməkhaqqı subindeksi üzrə də Azərbaycanda dövlətin müdaxiləsi yüksək hesab edilir. Azərbaycan dünya reytinqinə əsasən, orta mövqedədir və İrlandiya ilə 19-20-ci yerləri bölüşür».

Qeyd edilmişdir ki, son 20 ildə dünya iqtisadiyyatında baş vermiş ən fundamental dəyişikliklərdən biri «sosializmdən çıxmış» yeni dövlətlərin az müddət ərzində daha liberal iqtisadiyyat qurmasıdır: «Azərbaycan indi Fransaya, İtaliyaya, Hollandiyaya və bir çox başqa «köhnə» bazar iqtisadiyyatı ölkələrinə nisbətən daha liberal iqtisadiyyata malikdir».

N.İmanov bildirmişdir ki, hər bir ölkənin özünün milli xüsusiyyətləri də iqtisadi islahatların müəyyən edilməsi və aparılmasında vacib faktorlardır: «Nəzəri yanaşmaların ölkəmizdə tətbiqi imkanlarına gəlincə, hazırda Azərbaycanda xarici ticarət prosedurlarının və lisenziyalaşdırmanın (icazələr və razılaşdırmalar sisteminin) sadələşdirilməsi digər islahatlara nisbətən daha aktualdır. İqtisadiyyatın hansısa sahəsində idarəetmə liberallaşdıqda və ya sərt tənzimləmə tədbirləri həyata keçirildikdə onun inkişaf tempi digər sahələrlə müqayisədə yüksəlirsə, deməli, bu islahatlar davam etdirilməlidir».

### Vergilər Nazirliyi iqtisadi böhranı daha hazırlıqlı qarşıladı



***İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov*** «Vergi inzibatçılığının təkmilləşdirilməsi» mövzusunda çıxış edərək bildirmişdir ki, dövlətin öz öhdəliklərini yerinə yetirməsi üçün vergilərin və digər məcburi ödənişlərin tam və vaxtında büdcəyə ödənilməsini təmin edən sistemin yaradılması vergi inzibatçılığının qarşısında duran əsas vəzifələrdən biri hesab olunur. Vergi sistemində yeni qanunların qəbul edilməsində və texniki aktivliyin artırılmasında əsas məqsəd sabit iqtisadi artıma nail olmaq, əmtəə və xidmətlərin qiymət sabitliyini qorumaq, əhalinin yüksək məşğulluğunu təmin etmək və gəlirlərin yenidən bölgüsündə sosial ədaləti maksimum səviyyəyə çatdırmaqdır. Bütün bu məqsədlərə eyni zamanda nail olmaq üçün dövlətin əsas funksiyası balanslaşdırılmış vergi siyasətinin həyata keçirilməsidir.

Bildirilmişdir ki, digər dövlət qurumları ilə müqayisədə Vergilər Nazirliyi iqtisadi böhranı daha hazırlıqlı qarşıladı, çünki vergi inzibatçılığının təkmilləşdirilməsində elektronlaşma böyük əhəmiyyət təşkil edir. Vergi sistemində son illər ərzində aparılan islahatlar da məhz bu istiqamətdədir: «Vergi inzibatçılığı xərclərinin vergi daxilolmalarına nisbəti cəmi 0,3 faiz təşkil edir ki, bu da elektronlaşma səviyyəsinin qiymətləndirilməsi üçün olduqca vacibdir. Təbii ki, islahatlar vergiqoyma mexanizmlərinə, eləcə də vergi dərəcələrinə vaxtaşırı baxılması və dəyişikliklərin aparılmasından əlavə, institusional dəyişikliklərin stimullaşdırılmasına ünvanlanmalıdır. Artıq bu sahədə ötən illərdə xeyli işlər görülmüşdür. Bununla yanaşı, aşağıdakı fəaliyyətlərin vergi sistemində nəzərə alınması məqsədəuyğun hesab edilməlidir:

- Nağd ödənişlərə limitlərin müəyyənləşdirilməsi məqsədəuyğundur. Bir sıra inkişaf etmiş ölkələrin uğurla tətbiq etdiyi praktikanı nəzərə alaraq, Azərbaycanda da nağd hesablaşmaların minimumlaşdırılması istiqamətində inzibati metodlardan istifadə edilməsi mümkündür. Bu baxımdan, birinci mərhələdə dəyəri 5000 manatdan artıq olan məhsulların alğı-satqısının nağd aparılması qadağan edilməlidir. Sonrakı mərhələlərdə bu göstəricinin pilləli şəkildə 1000 manatadək azaldılması məqsədəuyğundur;

- Nağdsız hesablaşmaların stimullaşdırılması məqsədilə müəyyən dövr üçün bonus sistemlərinin tətbiq edilməsi mümkündür. Bu zaman plastik kartlardan istifadə edərək alğı-satqı edənlərin ödədiyi vəsaitin bir qismi (məsələn, 3 faizi) sonradan həmin şəxsin hesabına qaytarıla bilər. Vətəndaşları nağdsız hesablaşmalardan istifadəyə təşviq edən bu sistem ötən əsrin 90-cı illərində qardaş Türkiyədə çox uğurla tətbiq olunmuşdu;

- Elektron ticarətin inkişafı üçün bu sahənin ƏDV-dən azad olunması məqsədəuyğun hesab edilə bilər. Bu, elektron ticarətin inkişafına yardım göstərməklə yanaşı, həm də leqallaşdırılmasına şərait yarada bilər. Bu təcrübə ABŞ-da tətbiq edilir;

- Son illər ölkə iqtisadiyyatının leqallaşdırılması istiqamətində aparılan islahatlara dəstək olaraq vergi dərəcələrinə yenidən baxılması məqsədəuyğundur. Bu məqsədlə fərqli sektorlara ƏDV-nin tətbiqi dərəcələri azaldılmalı və bir çox Avropa ölkələrində olduğu kimi, dəyişən dərəcələr metodu tətbiq edilməlidir.

### Milli ödəniş sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdiriləcək



***Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktor müavini Vahid Qurbanlı*** «Bank islahatları və e-xidmətlərin genişləndirilməsi istiqamətləri» mövzusunda çıxış etmişdir. Bildirmişdir ki, Mərkəzi Bankın qanunla müəyyənləşdirilmiş əsas səlahiyyətlərindən biri də ölkədə ödəniş sistemlərinin, o cümlədən hesablaşma-klirinq sistemlərinin yaradılması, onların fəaliyyətinin sabitliyinin və inkişafının təmin edilməsidir. Bu missiya çərçivəsində bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da milli ödəniş sistemi infrastrukturunun sabit və etibarlı fəaliyyəti diqqət mərkəzində saxlanılır. Bu infrastrukturun əsas komponentləri iri və təcili ödənişlər üzrə real vaxt rejimində banklararası hesablaşmalar sistemi və daim təkrarlanan xırda ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsi üçün nəzərdə tutulmuş xırda ödənişlər üzrə hesablaşma klirinq sistemidir. Son illərdə ölkəmizdə telekommunikasiya şəbəkələrinin və elektron imza infrastrukturunun müasir standartlar əsasında inkişaf etdirilməsi milli ödəniş sistemi komponentlərinin təkmilləşdirilməsi üçün yaradılmış əlverişli şəraitdən istifadə edərək, xüsusi tədbirlər həyata keçirilir. Artıq Mərkəzi Bankda bank sertifikat xidmətləri fəaliyyət göstərir və qanunvericiliyin tələbləri əsasında akkreditə olunub. «2000-ci ilin əvvəllərində iri və təcili ödənişlər sistemini yaradanda Azərbaycanda telekommunikasiya şəbəkələri və elektron imza infrastrukturu, demək olar ki, yox səviyyəsində idi. Buna görə də bu sistemlərin əsasını beynəlxalq infrastrukturlar üzərində qurmuşduq. Lakin hazırda iri və təcili ödənişlər sisteminin Mərkəzi Bankın sifarişi ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat-Hesablama Mərkəzi tərəfindən yaradılmış qapalı telekommunikasiya şəbəkəsi üzərindən fəaliyyət göstərməsi təmin olunub. Aydındır ki, beynəlxalq infrastrukturlar üzərindən işləməni alternativ xətt kimi saxlamışıq. Milli ödəniş sisteminin əsas komponentlərindən istifadə nəticəsində beynəlxalq infrastrukturlardan asılılq tamamilə ləğv edilmişdir».

V.Qurbanlı onu da qeyd etmişdir ki, bu il də milli ödəniş sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdiriləcək, xırda ödənişlər üzrə birbaşa limitləşmə ödəniş alətindən istifadə olunacaq. Banklara verilmiş avtomatlaşdırılmış iş yerləri yeni və tam müasir platformaya keçiriləcəkdir.

### İslahatlar insan hüquq və azadlıqlarının daha səmərəli təmin olunmasına zəmin yaradıb

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı*** qeyd etmişdir ki, hüquqi dövlətin mühüm prioritetlərindən biri insan və vətəndaşın hüquq və azadlıqlarının təminatıdır: «Ölkəmizdə həyata keçirilən siyasi, hüquqi, sosial və iqtisadi islahatlar insan hüquq və azadlıqlarının daha səmərəli təmininə zəmin yaratmışdır. Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında sahibkarların və istehlakçıların hüquqlarının möhkəmləndirilməsi, qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması, milli mexanizmlərin inkişafı, habelə bu sahədə institusional islahatların davam etdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi kimi mühüm müddəalar əks etdirilmiş, bu sahədə mütəmadi tədbirlərin keçirilməsi aidiyyəti dövlət qurumlarına, o cümlədən Vergilər Nazirliyinə tapşırılmışdır. Azərbaycanda insan hüquqlarının, o cümlədən vergi ödəyicilərinin öz hüquqlarını müdafiə etmələri, yuxarı instansiyalara müraciət üçün geniş imkanlar yaradılmışdır. Bu işdə Vergilər Nazirliyinin xidmətlərini xüsusi vurğulamaq istərdim».



Qeyd edilmişdir ki, dövlət başçısının «ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır» strateji xəttinə uyğun olaraq, biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər bu gün xüsusilə böyük əhəmiyyət daşıyır: «Hər il Ombudsman tərəfindən aparılan təhlillər onu deməyə əsas verir ki, insan hüquqlarının, o cümlədən vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində vergi orqanları tərəfindən çox mühüm islahatlar həyata keçirilməkdədir. Vergi sisteminin qabaqcıl Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialının gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinə xidmət sahələrinin, o cümlədən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi vergi ödəyiciləri tərəfindən razılıqla qarşılanır.

İnsan hüquqlarının müdafiəsində mühüm rol oynayan səmərəli mexanizmlərdən biri də artıq 14 ilə yaxın bir müddətdir ölkədə fəaliyyət göstərən Ombudsman təsisatıdır. Qurum sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquqlarının qorunması vəziyyətini daim diqqət mərkəzində saxlayır, aşkar olunmuş nöqsanların aradan qaldırılması ilə əlaqədar təklif və tövsiyələr verir, aidiyyəti qurumlar qarşısında məsələ qaldırır, bir çox problemlərin həllinə nail olur».

### Vergilər Nazirliyi və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən ibarət birgə İctimai Şura yaradılmalıdır

***«Konstitusiya» Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev*** «Vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində görülən işlərin qiymətləndirilməsi» mövzusunda çıxış edərək bildirmişdir ki, vergi ödəyicilərinin hüquqlarının qorunması vətəndaşlarda tək vergi sisteminə deyil, bütövlükdə dövlətə qarşı etimadı gücləndirən mühüm amildir. Vergi Məcəlləsinin 100-dən artıq maddəsi vergi ödəyicilərinin hüquqlarının qorunması və onların qanuni maraqlarının təmin olunması ilə bağlıdır.

Vergi orqanlarının səlahiyyətləri ilə ödəyicilərin hüquqları arasında sərhədlər düzgün müəyyən olunmalıdır.

**Davamı 6-cı səhifədə**

## Qonaqlar Vergi Forumu haqqında

**Vüqar Bayramov, İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri:**

- Bütövlükdə forumun işini qiymətləndirsək, çox yüksək səviyyədə keçirilən tədbir oldu. Əvvəlki forumlardan fərqli olaraq, bu forumda müstəqil iqtisadçılar, alimlər çıxışçı kimi, spiker kimi dəvət olunmuşdular. Bu da imkan verdi ki, müxtəlif məsələlərdə yalnız dövlət qurumlarının yanaşmasını deyil, həm də müstəqil mərkəzlərin, beyin qurumlarının, qeyri-hökumət təşkilatlarının fikirlərini, yanaşmalarını ortaya qoymaq mümkün olsun. Tədbirdə sahibkarlar da iştirak edirdilər. Onlar da öz fikirlərini, xüsusən də vergi siyasətinin daha da təkmilləşdirilməsi ilə bağlı qeydlərini bildirdilər, təkliflərini irəli sürdülər. Bu baxımdan, forum birmənalı şəkildə müxtəlif təşkilatların, dövlət qurumlarının, sahibkarların, vətəndaş cəmiyyəti institutlarının bir araya gəlmələrinə şərait yaratdı və bu, kifayət qədər məhsuldar müzakirələr aparmağa imkan verdi. Forumda mövcud vergi sisteminin qiymətləndirilməsi həyata keçirildi. Düşünürəm ki, tədbirdə qaldırılan məsələlər, verilən təkliflər gələcəkdə vergi siyasətinin daha da təkmilləşdirilməsinə imkan yaradacaq.

**Behnam Qurbanzadə, «B.EST Solutions» şirkətinin icraçı direktoru:**

- Şirkətimiz Azərbaycanda «ASAN imza»nı təqdim edir. Bu innovativ yenilik ölkədə tətbiq olunan ən yüksək texnologiyalardandır, təhlükəsizlik nöqteyi-nəzərindən ən qabaqcıl məhsullardandır. Bu gün bütün orta və iri müəssisələr, eləcə də fiziki şəxslər «ASAN imza»dan faydalanaraq vaxta qənaət edir, öz biznesləri üçün əlavə dəyər imkanı əldə etmiş olurlar. Biz beynəlxalq bazarlarda fəal iştirak edirik. Müxtəlif ölkələri təmsil edən böyük şirkətlərlə əlaqələr qurmuşuq və artıq ISESCO layihəsinə qoşuluruq. «ASAN imza» bu gün Azərbaycan iqtisadiyyatını irəli aparan, ölkəmizə uğur gətirən layihədir. Foruma gəlincə, bugünkü iqtisadi şəraitdə belə əhəmiyyətli görüşlər böyük əhəmiyyət daşıyır. Mütəxəssislər, dövlət məmurları, dövləti təmsil edən qurumların nümayəndələri və iqtisadçılar bir araya gələrək, böhrandan çıxmaq üçün yeni layihələri müzakirə edir, səmərəli yollar axtarırlar. Bu, təqdirəlayiq və çox əhəmiyyətli bir platformadır.

**Səlcuq Düzgün,Türkiyəli İş Adamları Birliyinin baş direktorunun köməkçisi:**

- Bu gün Birliyimizin dünyada 300-ə yaxın nümayəndəliyi var. Onlara üzv olan iş adamlarının sayı 30 mini keçmişdir. Azərbaycanda isə 22 ildir işləyirik. Buradakı işimizin əsasını türkiyəli iş adamlarının Azərbaycana yatırdığı investisiyaları təşviq etmək, iş adamlarına dəstək göstərmək təşkil edir. İndiyədək Azərbaycana 10 milyard dollara yaxın investisiya yatırmışıq. Vergilər Nazirliyinin bu forumu bizə - vergi ödəyicilərinə əməli kömək edir. Burada ayrı-ayrı qurumlar öz mövqelərini irəli sürür, dövlətin məsul orqanları ilə fikir mübadiləsi aparmaq imkanı qazanırlar. Bu mənada, vergi islahatlarının, qanunçuluğun təkmilləşdirilməsi sahəsində baş verən əsaslı yeniliklərin öyrənilməsində forum böyük əhəmiyyət daşıyır.

**Zemfira Ağayeva, Sahibkar Qadınlar Birliyinin sədri:**

- İlk olaraq Vergilər Nazirliyinin əməkdaşlarını peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm. Artıq 5-ci ildir ki, nazirlik Azərbaycanda vergi sisteminin mövcud durumu və gələcək perspektivləri ilə bağlı forum keçirir. Builki forumda vergi qanunvericiliyində aparılmış yeniliklərlə bağlı bizi maraqlandıran məsələlər barədə müzakirə aparmaq imkanı əldə etdik, bilmədiyimiz məsələlərə aydınlıq gətirildi. Belə tədbirlərin müntəzəm keçirilməsinə ehtiyac var.

Artıq vergi orqanları ilə vergi ödəyiciləri arasında canlı təmas əsaslı şəkildə məhdudlaşdırılıb, proseslər elektronlaşdırılıb, sahibkarlar vergi əməkdaşları ilə ünsiyyətə girmədən vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı işlərini internet üzərindən həyata keçirə bilirlər. Bu, bizim üçün çox sevindirici haldır. İstərdik ki, sahibkarların işinin stimullaşdırılması üçün tədbirlər davamlı olsun.

**Humay Məmmədova, «Qədim Quba» xalçaçılıq müəssisəsinin direktoru:**

- Vergilər Nazirliyi bizim problemlərimizlə həmişə maraqlanır, müraciətlərimizə baxır və qısa vaxt ərzində həllinə çalışır. Bu forumu da əhəmiyyətli bir addım kimi qiymətləndirirəm. Heç şübhəsiz, Azərbaycan Prezidentinin fərmanı ilə lisenziyaların sayının azaldılması və lisenziya vermək səlahiyyətinin «ASAN Xidmət»ə həvalə olunması, yoxlamaların müvəqqəti dayandırılması kimi addımlar sahibkarlığın inkişafına öz qiymətli töhfəsini verəcəkdir.

**Vasif Mövsümov, Korrupsiyaya qarşı Mübarizə Fondunun icraçı direktoru:**

- Vergilər Nazirliyinin bu tədbirini biznes dairələri, qeyri-hökumət təşkilatları və dövlət arasında qeyri-formal ünsiyyət də adlandırmaq olar. Korrupsiyaya qarşı Mübarizə Fondunun bu forumda iştirakı ölkənin iqtisadi həyatında gedən prosesləri daha yaxından izləmək və təhlil etmək baxımından əhəmiyyətlidir. Fondumuz korrupsiyaya qarşı mübarizədə ictimaiyyətin yaxından iştirakını təmin etmək, cəmiyyətin inkişafına mane olan bu problemin aradan qaldırılması məqsədilə ictimai rəy formalaşdırmaq üçün təsis olunub. Təşkilat atdığı addımlarda, hər şeydən öncə, millətimizin yaradıcı potensialına arxalanır. Bu işdə biz hər zaman Vergilər Nazirliyini də yanımızda görür, yaxın dəstəyini hiss edirik. Antikorrupsiya mexanizmlərinin və resurslarının hərəkətə gətirilməsində şəffaflığın və könüllülüyün böyük rolu vardır. Ümumi problemlərin həlli, eləcə də korrupsiyanın səviyyəsinin azaldılması baxımından qarşılıqlı fikir mübadiləsinə, açıq dialoqa əsaslanan bu cür tədbirlərin əhəmiyyəti əvəzolunmazdır.

## V Vergi Forumu

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 5-ci səhifədə

Qanunun vergi orqanlarına verdiyi səlahiyyətlərdən sui-istifadə hallarından vergi ödəyicilərini qorumaq xüsusi əhəmiyyət daşıyır.

Ümumilikdə vergi ödəyicilərinin hüquqların özünü beynəlxalq praktikada da təsbit edilmiş bir neçə komponentdə ifadə edir:

- şəffaf vergi sistemi;
- sistemdən hamının istifadə edə bilməsi üçün əlçatanlıq;
- sistemin ədalətli olması və bunun ödəyicilər tərəfindən izlənilə bilməsi;
- yarana biləcək suallara operativ cavab alınması imkanları;
- bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və təbliği.



Bunlardan əlavə, beynəlxalq təcrübədə vergi ödəyicilərinin aşağıdakı hüquqları əsas götürülür:

- məlumatlandırılma;
- keyfiyyətli xidmət;
- düzgün vergi məbləğindən artıq ödənməmək;
- vergi orqanına şikayət etmək və məsələsinə baxılmasını tələb etmək;
- vergi orqanının qərarından müstəqil foruma şikayət etmək və s.

Qeyd olunmuşdur ki, Azərbaycanda vergi ödəyicilərinin bu hüquqları qanunvericilikdə və Vergi Məcəlləsində təsbit edilib. Xüsusən son illərdə vergi ödəyicilərinin hüquqlarının qorunması məsələsinə xüsusi diqqət yetirilir: «Bu hüquqların qorunması ilə bağlı Vergilər Nazirliyi və vergi ödəyiciləri arasında effektiv əks-əlaqə sistemi də yaradılıb. Bu isə olduqca əhəmiyyətli məsələdir. Vergi ödəyiciləri nöqsanlar barədə operativ məlumat vermək, Vergilər Nazirliyinin isə məlumat almaq imkanı olmalıdır. Bu mexanizm hazırda kifayət qədər səmərəli işləyir. Xüsusən keyfiyyətli xidmət hüququ barədə danışdıqda, biz Vergilər Nazirliyi tərəfindən böyük işlər görüldüyünü qeyd etməliyik».

Ə.Nuriyev sonda təklif etmişdir ki, vergi ödəyicilərinin hüquqlarının qorunması ilə bağlı əldə olunan nailiyyətlərin daha da inkişaf etdirilməsinə ehtiyac var. Vergilər Nazirliyi və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən ibarət birgə İctimai Şura yaradılması böyük əhəmiyyət daşıya bilər. Bu, sahibkarlarla vergi orqanları arasında şəffaf münasibətlərin formalaşmasına kömək edə bilər.

### Vergi Məcəlləsinin 100-dən artıq maddəsi vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva* «Vergi ödəyicilərinin hüquqları və hüquqpozmalarla mübarizə tədbirləri» mövzusunda təqdimatla çıxış etmişdir. Qeyd etmişdir ki, vergi ödəyicilərinin hamısı sahibkar olmasa da, sahibkarların hamısı vergi ödəyicisidir və ölkədə aparılan iqtisadi islahatların mərkəzində məhz sahibkarların hüquqlarının müdafiəsi dayanır: «Son dövrdə atılan bir sıra addımlar - Apelyasiya şuralarının yaradılması, lisenziyalaşdırma ilə bağlı prosedurların sadələşdirilməsi, rüsumların məbləğinin aşağı salınması və s. kimi qərarlar vergi ödəyicilərinin, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinə xidmət edir. Bildiyimiz kimi, vergi ödəyicilərinin hüquqları ölkə Konstitusiyası ilə də qorunur və sənəddə qeyd olunur ki, hər kəs azad sahibkarlıqla məşğul ola bilər və buna heç kim müdaxilə edə bilməz. O cümlədən vergi ödəyicilərinə münasibətdə Konstitusiya müəyyən edir ki, heç kəs qanunla müəyyən olunmayan ödənişləri, vergiləri ödəməyə məcbur edilə bilməz, heç kəsdən hüquqi əsası olmayan ödəniş tələb edilə bilməz».

Vergi Məcəlləsində vergi ödəyicilərinin hüquqlarına toxunan S.Musayeva bildirmişdir ki, məcəllədə 100-dən artıq maddə vergi ödəyicilərinin hüquqlarının qorunma-



sına xidmət edir: «Hər bir vergi ödəyicisi ona dəymiş zərərin ödənilməsini tələb edə, onun barəsində dövriyyəsinin dəqiqləşdirilməsi ilə bağlı vergi orqanlarına əlavə sənədlər təqdim edə, dövriyyəsi dəyişibsə, xronometraj metodu ilə müşahidənin keçirilməsini və dövriyyəsinin dürüstləşməsini tələb edə bilər. Eyni zamanda vergi orqanları ilə daha səmərəli, müasir tələblərə cavab verən ünsiyyətin qurulması üçün vergi partnyorluğu sazişi bağlaya və bir sıra digər hüquqlardan səmərəli istifadə edə bilər. Vergi ödəyicisi vergi yoxlamaları və nəzarət tədbirləri zamanı özü və ya səlahiyyətli nümayəndəsi vasitəsilə yoxlamanın bütün gedişatında iştirak edə, vergi orqanının təqdim etdiyi sənədlərə, ekspert rəylərinə etirazını bildirə, şikayət verə bilər».

Bildirilmişdir ki, vergi orqanları elektron informasiya sistemlərində sahibkarları maraqlandıran sualları, onların fəaliyyətini tənzimləyən hüquqi aktları yerləşdirməli, vaxtaşırı təbliğat işləri ilə məşğul olmalıdırlar.

### Vergilər Nazirliyi elektron xidmətlərin təşkili



### səviyyəsinə görə öndədir

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron xidmətlərin inkişafı və sosial innovasiyalar şöbəsinin müdir müavini Fariz Cəfərov* «ASAN xidmət»in fəaliyyəti, o cümlədən vergi xidmətləri» mövzusunda çıxışında bildirmişdir ki, ölkə başçısının təşəbbüsü ilə 2012-ci ildə yaradılan agentlik və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri Azərbaycanda aparılan köklü və sistem xarakterli islahatların ən bariz nümunələrindən biridir: «Keçən üç il ərzində ümumilikdə vətəndaşların istifadəsinə 9 «ASAN xidmət» mərkəzi verilmişdir. Bu il ərzində daha 2 mərkəzin açılması planlaşdırılır. Mərkəzlərdə 10 dövlət orqanı və bir sıra özəl şirkətlər tərəfindən ümumilikdə 240-a yaxın xidmət göstərilir».

Qeyd etmişdir ki, «ASAN xidmət» mərkəzlərində Vergilər Nazirliyi tərəfindən 2 xidmət göstərilir. «ASAN xidmət» mərkəzlərində fəaliyyətə başladığı dövrdən bu günə qədər nazirlik 198.591 müraciət qəbul etmiş, 187.195 müraciət üzrə xidmət göstərilmişdir.

Elektron xidmətlərin təşkili və göstərilməsinin Dövlət Agentliyi tərəfindən qiymətləndirilməsinin həyata keçirildiyini qeyd edən F.Cəfərov demişdir ki, aparılmış qiymətləndirmənin yekunu olaraq, hər bir dövlət orqanı üzrə rəy hazırlanır və həmin rəydə xidmətlərin daha yaxşı təşkili ilə bağlı konkret təkliflər göstərilir: «Aparılmış üç qiymətləndirmə zamanı Vergilər Nazirliyi elektron xidmətlərin təşkili və elektronlaşması səviyyəsinə görə ön sıralarda yer alır. Nazirliyin göstərdiyi elektron xidmətlərdən ümumilikdə 57-si «əla» qiymətləndirilmişdir. Dövlət Xidmətlərinin Elektron Reyestrində Vergilər Nazirliyinin 94 xidməti qeydiyyatdan keçmişdir, həmin xidmətlərin 58-i elektron xidmətlərdir».

F.Cəfərov Dövlət Agentliyi tərəfindən tətbiq olunan «İdeya Bankı», «ASAN School», «ASAN Radio», «Mobil səyyar ASAN xidmət», «ASAN ödəniş» sistemi barədə də tədbir iştirakçılarına geniş məlumat vermişdir. Qeyd etmişdir ki, yaxın zamanlarda Vergilər Nazirliyinin də «ASAN ödəniş» sisteminə tam inteqrasiya olunması başa çatacaqdır. Vergilər Nazirliyinin inzibati tənbeh tədbirləri ilə bağlı cərimələri üzrə ödənişlərin «ASAN ödəniş» sistemi üzərindən aparılması hazırda test mərhələsindədir.

### Hədəfimiz Azərbaycanı dünyada mobil identifikasiya xidmətinin ən çox nüfuz etdiyi ölkəyə çevirməkdir

*Azərbaycan-Estoniya Ticarət Palatasının rəhbəri, «B.EST solutions» şirkətinin təsisçisi Yana Krimpe* «Asan imza» Azərbaycanda vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin innovativ açarı kimi» mövzusunda çıxış etmişdir. Qeyd olunmuşdur ki, iki ildən az müddət ərzində ölkədə istifadəçilərə təqribən 200.000 «ASAN imza» sertifikatı təqdim edilmişdir. 450-dən artıq dövlət və özəl e-xidmət üzrə «ASAN imza» tətbiq olunur və ümumilikdə 10 mil-



yonadək əməliyyat icra edilmişdir: «ASAN imza» dünyada ən sürətlə inkişaf edən mobil identifikasiya xidmətidir və hədəfimiz Azərbaycanı mobil identifikasiya xidmətinin ən çox nüfuz etdiyi ölkəyə çevirməkdir».

«ASAN imza» istifadə edilən ən populyar xidmətlərdən söz açan Y.Krimpe bildirmişdir ki, bunlar vergi xidmətləri, əmək və sosial müdafiə sahəsində xidmətlər, internet bankçılıq xidmətləridir: «Vergilər Nazirliyi dövlət xidmət təminatçıları sırasında aparıcı yerlərdən birini tutur. 432 elektron xidmətin 62-si Vergilər Nazirliyi tərəfindən göstərilir. 2015-ci ildə vergi ödəyiciləri «ASAN imza» ilə onlayn rejimdə ümumilikdə 2,5 milyona yaxın əməliyyat icra etmişlər».

Qeyd edilmişdir ki,»ASAN imza» heç bir halda kənar subyektlər tərəfindən sındırıla və ya digər arzuolunmaz hərəkətlərə məruz qala bilməz. «ASAN imza» Azərbaycanda çalışan əcnəbi iş adamları üçün yeni imkanların açılmasına, müxtəlif məlumat bazalarının qarşılıqlı əlaqəsinə, rəqəmsal kanallar üzərindən daha çox xidmətin təqdim edilməsinə imkanlar yarada bilər: «Hesab edirəm ki, elektron məhkəmə və elektron notarius layihələrində, vergilərin yalnız elektron və mobil imza vasitəsilə onlayn bəyan edilməsində, gömrük bəyannamələrinin doldurulması və gömrük ödənişləri zamanı, Dövlət Yol Polisi İdarəsi tərəfindən verilən protokolların imzalanmasında, bankların, sığorta şirkətlərinin tənzimləyici qurumlar qarşısında hesabatlılığı prosesində və digər prioritet sahələrdə «ASAN imza»dan istifadə etmək zəruridir».

### Nağd əməliyyatlar nə qədər az olsa, həyata keçirilən tranzaksiyaları izləmək



### bir o qədər asan olar

*AMCHAM-ın nümayəndəsi Nuran Kərimov* «Vergi siyasətinin investisiya mühitinə təsiri» mövzusuna toxunaraq qeyd etmişdir ki, bu sahənin əsas prioritetlərindən biri iqtisadiyyatın liberallaşdırılmasıdır: «İdxal əməliyyatlarının şəffaflaşdırılması istiqamətində gömrük orqanlarının peşə hazırlığının artırılması və malların gömrük qiymətinin müəyyən edilməsi üçün mötəbər məlumat bazasının formalaşdırılması çox vacibdir».

Nağdsız əməliyyatlara üstünlük verilməsinin zəruriliyini qeyd edən N.Kərimov bildirmişdir ki, nağd formada keçirilən əməliyyatlar nə qədər az olsa, həyata keçirilən tranzaksiyaların vergi orqanları tərəfindən izlənməsi bir o qədər asan olar: «Bunlardan əlavə, xarici investorların Azərbaycana etibarını artırmaq lazımdır. Ölkəmiz haqqında stereotipləri müsbətə doğru dəyişmək üçün transmilli şirkətlərlə Foreign Investment Protection müqavilələrin imzalanması, ödəniləcək vergilər və tətbiq olunacaq qiymət siyasəti ilə bağlı əvvəlcədən razılıq mexanizminin tətbiqi həyata keçirilməlidir».

Güzəşt və azadolmalarla bağlı təklif edilmişdir ki, emal da daxil olmaqla, alınmış xammal əsasında kənd təsərrüfatı məhsullarını istehsal edən müəssisələrə vergi güzəştləri şamil edilməli, idxal olunan və daxili istehsal üçün nəzərdə tutulmayan məhsulların istehsalında istifadə olunan xammal gömrük rüsumu və vergilərdən azad edilməli, iqtisadiyyatın prioritet sahələrinə kapital qoyuluşları ƏDV-dən azad edilməli, idxal zamanı ödənilməli olan ƏDV üçün möhlət müəyyən olunmalıdır: «Həmçinin, gəlir vergisi üçün sabit dərəcənin müəyyən olunması zəruridir. Rusiya, Ukrayna, Qazaxıstan sabit vergi dərəcəsi tətbiq edirlər. Bu ölkələrə nəzər salsaq görərik ki, optimal vergi dərəcəsinə keçiddən sonra vergi yığımları dərhal artmışdır. Hesab edirəm ki, bu təcrübəni öyrənməyə dəyər. Bundan əlavə, sosial sığortaya cəlb olunan aylıq gəlir üçün maksimal həddin müəyyən edilməsi, yüksək kvalifikasiya tələb olunan iqtisadiyyatın sektorları üzrə əmək fəaliyyətinə cəlb edilən əcnəbilərin sosial sığorta haqlarından azad olunması, işçinin bağladığı ipoteka müqaviləsi üzrə işəgötürən tərəfindən həyata keçirilən ödənişlərin gəlir vergisi və sosial sığorta haqlarından azad edilməsi də zəruridir».

Vergi inzibatçılığı sahəsində təkliflər səsləndirən N.Kərimov qeyd etmişdir ki, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının, gömrük rüsumlarının çevik qaytarılmasının təmin edilməsi, vergi borclarının toplanması ilə bağlı qabaqcıl Avropa təcrübəsinin tətbiqi, əcnəbi turistlərə ƏDV-nin qaytarılmasının təşkil edilməsi, yerli vergilərin toplanmasının Vergilər Nazirliyinə həvalə edilməsi də vacib tədbirlər sırasındadır: «Bunlarla yanaşı, hesab edirəm ki, ikiqat vergitutmanın aradan qaldırılması sazişləri üzrə rezidentlik sertifikatı əsasında bütün azadolma və güzəştlərin əvvəlcədən tətbiq edilməsi imkanının nəzərdə tutulması, yalnız vergi hüquqpozmalarına dair işlərə baxan xüsusi statuslu məhkəmələrin formalaşdırılması, vergi mübahisələrinə baxılması üçün qısaldılmış maksimal müddətin müəyyən olunması, elektron auditin genişləndirilməsi və s. işlərin həyata keçirilməsi müsbət nəticə verə bilər».

### Əmək müqaviləsinin kağız



### formatı və əmək kitabçası ləğv edilməlidir

*Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov* «Əmək hüquqlarının qorunması sahəsində vergi ödəyicilərinin və dövlətin vəzifələri» mövzusunda çıxış edərək bildirmişdir ki, rəsmi statistikaya görə, ölkədə məşğul əhalinin sayı 4 milyon 556 nəfər təşkil edir: «Əmək müqaviləsi ilə işləyənlərin sayı 1,5 milyondur, onlardan 950 min nəfəri dövlət sektorunda, 550 mini isə özəl sektorda çalışanlardır. Həmin 550 min nəfərin əksəriyyəti ilə əmək müqaviləsi ikili mühasibat əsasında bağlanmışdır, yəni faktiki əməkhaqqı ilə əmək müqaviləsində göstərilən əməkhaqqı arasında bəzən bir neçə dəfə fərq olur. Yerdə qalan 3 milyon məşğul insan isə mülki-hüquqi müqavilə ilə işlər və xidmətlər həyata keçirənlər, qeyri-formal əmək bazarı iştirakçıları, pay torpaq mülkiyyətçisi və onun əmək qabiliyyətli ailə üzvləridir».

Bildirilmişdir ki, əmək müqaviləsi olmadan muzdlu işə cəlb olunduqları zaman işçilər işəgötürəndən tam asılı vəziyyətə düşür, icbari dövlət sığortasına cəlb edilmir, sığorta hadisəsi baş verərkən hər hansı müavinət ala bilmir, istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri hallarından sığortalanmırlar: «Bu zaman işəgötürənlər də müəyyən problemlərlə rastlaşırlar. İşçi əmək müqaviləsi ilə işləmədiyi üçün işəgötürən qarşısında məsuliyyət daşımır, işəgötürənə zərər vurulduqda bunun əvəzini tələb edə bilmir. İstehsalatda ağır nəticəyə gətirən bədbəxt hadisə baş verdikdə isə işəgötürənin həm maddi, həm də cinayət və inzibati məsuliyyəti daha çox olur».

Məruzəçi mövcud vəziyyətdən çıxış yolları üçün qanunvericilik sahəsində təkliflər səsləndirmişdir. Qeyd edilmişdir ki, mülki-hüquqi müqavilələrin bağlanması üçün kriteriyalar müəyyən olunmalıdır: «Bu gün 1 milyondan çox mülki-hüquqi müqavilə var. Onlardan 80 faizi faktiki olaraq muzdlu işə cəlb edilmiş şəxslərə aiddir. Mülki-hüquqi müqavilə ilə işləyənlər üzrə kriteriyalar hazırlanmalıdır. İş və ya göstərilən xidmət muzdlu işin təsiri altına düşdükdə mülki-hüquqi müqavilə bağlana bilməz. Görülən iş və ya göstərilən xidmət muzdlu əməyin əlamətlərinə uyğun olduğu halda, belə müqavilələrin bağlanmasına görə ciddi məsuliyyət nəzərdə tutulmalıdır».

Qeyd olunmuşdur ki, Əmək Məcəlləsinə «sahibkar olmayan fiziki şəxs» anlayışı, «Ev qulluğu işlərinə cəlb edilən şəxslərlə əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətləri» adlı fəsil daxil edilməli, əmək müqaviləsinin kağız formatı və əmək kitabçası ləğv edilməlidir.

S.Məmmədov Vergi Məcəlləsinə, «Sosial sığorta haqqında» Qanuna və digər normativ hüquqi aktlara müvafiq əlavə və dəyişikliklər etməklə ev işlərinə cəlb olunan və muzdlu əmək fəaliyyəti həyata keçirən işçilərə münasibətdə fərqli verginin tətbiqinin mümkünlüyünü bildirmişdir: «Ən yaxşısı isə vergiqoymanın patent sisteminin tətbiqidir. Bu sistem yalnız ev qulluğu işlərinə deyil, həmçinin bəzi kateqoriyalar üzrə özünüməşğul insanlara da tətbiq oluna bilər».

### Vergi ödəyicilərinin



### hüquqlarının qorunmasında vətəndaş cəmiyyətinin dəstəyinə ehtiyac var

*Media və İctimai Təşəbbüslər Mərkəzinin sədri, iqtisadçı ekspert Samir Əliyevin* çıxışı «Vergi ödəyicilərinin hüquqları: sahibkarların və vətəndaş cəmiyyətinin vəzifələri»mövzusuna həsr edilmişdir. Bildirilmişdir ki, vergi qanunvericiliyi vergi ödəyicilərinə öhdəliklərlə yanaşı, hüquqlar da verir, lakin bir sıra hallarda onlar bu hüquqlardan lazımınca yararlana bilmirlər: «Bunun əsas səbəbləri arasında maliyyə savadının az olması, qanunların dilinin çətin olması, son dəyişiklikləri mütəmadi izləyə bilməməklərini göstərmək olar. Bu kimi halların aradan qaldırılmasında Vergilər Nazirliyi dövlət qurumu olaraq vergi ödəyicilərinə dəstək verir. Nazirliyin internet portalında vergi qanunvericiliyinə dair bütün normativ aktlar yerləşdirilir və yenilənir. Bundan başqa, vergi ödəyicilərinin elektron poçt ünvanlarına baş vermiş dəyişikliklər, yeni qəbul edilmiş qaydalar barədə məlumatlar göndərilir. Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri vasitəsilə vergi ödəyicilərindən gələn suallar cavablandırılır. Bütün bunlara baxmayaraq, vergi ödəyicilərinin hüquqlarının qorunmasında, vergi öhdəliklərinin yerinə yetirilməsində, vergi sahəsində biliklərinin artırılmasında vətəndaş cəmiyyətinin dəstəyinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyəti insanlara ən yaxın və eyni zamanda tərəfsiz institutdur. Fikrimcə, Azərbaycanda vergi ödəyicilərinin hüquqlarının müdafiəsində vətəndaş cəmiyyətinin rolunun artırılmasına vergi orqanları-vətəndaş cəmiyyəti-vergi ödəyiciləri əməkdaşlığı çərçivəsində baxmaq lazımdır. Bu üçbucağın əsas nöqtəsi fiskal qurum olan Vergilər Nazirliyi olsa da, birləşdirici tərəfini vətəndaş cəmiyyəti təşkil edir. Araşdırmalar göstərir ki, sahibkarların əsas narazılığı vergi qanunvericiliyi ilə bağlı qanun layihələrini vaxtlı-vaxtında əldə edə bilməmələri, onların maraqlarının vergi qanunvericiliyində yetərincə nəzərə alınmaması, vergi qanunlarının dilinin çətin olması, dəyişikliklərdən gec xəbərdar olmaları, mətbuatda ver-

## V Vergi Forumu

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

gi qaydalarına dair izahedici məqalələrin kifayət qədər yer almamasıdır».

**Davamı 7-ci səhifədə**

**Əvvəli 6-cı səhifədə**

Qeyd edilmişdir ki, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq təşəbbüsü təkcə dövlət qurumlarının yox, həmçinin vergi ödəyicisi olan sahibkarlıq subyektlərinin də maraq dairəsində olmalıdır. Vergi orqanları ilə əməkdaşlıq aşağıdakı çərçivədə aparıla bilər:

- Vergi qanunvericiliyinin təkmilləşdirilməsi, habelə yeni qanun və qaydaların hazırlanması prosesinə vətəndaş cəmiyyətinin cəlb edilməsi;

- Vətəndaş cəmiyyətinin həyata keçirilən vergi siyasətinin sahibkarlıq subyektlərinə təsirinin qiymətləndirilməsi prosesində iştirakının təmin olunması;

- Vergi ödəyicilərinin maarifləndirilməsi işlərində vətəndaş cəmiyyəti təmsilçilərinə zəruri metodiki dəstəyin verilməsi;

- Vergi orqanlarının təşkil etdiyi ictimai müzakirələrə, o cümlədən «dəyirmi masa»lara, konfranslara, forumlara vətəndaş cəmiyyəti təmsilçilərinin cəlb olunması;

- Vergilər Nazirliyinin Apelyasiya Şurasında vətəndaş cəmiyyəti nümayəndələrinin təmsilçiliyinin təmin edilməsi;

- Vergilər Nazirliyi ilə vətəndaş cəmiyyəti institutlarının birgə layihələr həyata keçirməsi.



### İmtiyazlar vergi bazasının genişləndirilməsinə yönəldilir

***«PricewaterhouseCoopers» şirkətinin direktoru Arif Quliyev*** «İqtisadi çətinliklər və vergi islahatları: görülmüş tədbirlər və mümkün addımlar» mövzusunda çıxış etmişdir: «Beynəlxalq təcrübədə biznesə yönəldilən vergilərlə bağlı imtiyazlar verilir. Bu, faktiki olaraq vergi bazasının genişləndirilməsinə və gələcəkdə vergilərin daha çox yığılmasına yönəldilir. Bu zaman istehlakçılara yönəldilən vergi dərəcələrinin qaldırılması mümkündür.

A.Quliyev fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin və qiymətli kağızlar üzrə ödənilən dividendlərin və faizlərin 3 il müddətinə vergidən azad edilməsi, prioritet sahələr üçün idxal edilən texnika, avadanlıq və qurğuların idxal vergilərindən və ƏDV-dən 7 il müddətinə azad olunması, investisiya təşviqi sənədi almış fərdi sahibkar və hüquqi şəxsin 7 il müddətinə gəlir və mənfəət vergisi dərəcələrinin 50% azaldılması və əmlak vergisindən tamamilə azad edilməsi kimi tədbirləri xatırlatmışdır.

Bunlarla yanaşı, iqtisadi çətinliklər zamanı daxili və xarici investisiyaların, istehsalın, ixracın, ölkəyə valyuta axınının, vəsaitlərin iqtisadi dövriyyədə qalmasının təşviqi, Azərbaycanın regional mərkəzə çevrilməsi, zənginlik vergilərinin tətbiqi nəzərdə tutula bilər: «İstehsalın təşviqi üçün, faydalı qazıntıların hasilatı istisna olmaqla, istehsal fəaliyyətini həyata keçirən şəxslərə mənfəət vergisi üzrə vergi tətili müddətinin müəyyən edilməsi, sürətli amortizasiya hesablanmasından istifadə edilməsi hüququnun verilməsi, vergi zərərlərinin 10 il müddətinə sonrakı dövrlərə ötürülməsi və 3 ilədək əvvəlki dövrlərə keçirilməsi hüququ verilə bilər. İxracın təşviqi üçün, təbii sərvətlərin ixracı istisna olmaqla, dövriyyəsinin 50%-dən çoxunu ixracdan alınan gəlir təşkil edən vergi ödəyicilərinə gəlir və mənfəət vergisi dərəcələri üzrə 50% güzəşt tətbiq etmək olar. Ölkəyə valyuta axınının təşviqi üçün xaricdən cəlb edilən kreditlər üzrə faizlərdən müəyyən xəttə qədər vergi tutulmaması, xarici hüquqi şəxslərin Azərbaycan banklarındakı xarici valyutada hesabları üzrə ödənilən faizlərin vergidən azad olunması, qeyri-rezidentlər tərəfindən vergilərin bəyan edilməsi və ödənilməsi üçün sadələşdirilmiş vergi qeydiyyatının aparılması mümkündür. Vəsaitlərin iqtisadi dövriyyədə qalmasının təşviqi üçün yenidən müəssisələrin kapitalına yönəldilən dividendlərin vergidən azad edilməsi, «Ödənilmiş kapital»ın və «Səhm mükafatı»nın müəssisənin vergiyə cəlb olunan gəlirinə daxil edilməməsi, ƏDV məqsədləri üçün vergi tutulan dövriyyənin kassa metodu ilə müəyyən edilməsi, istehsal müəssisələrinin avadanlıqlarla təchiz olunması üzrə ödənilmiş ƏDV-nin dərhal geri qaytarılması, borcların satılması sahəsində mövcud olan ƏDV-nin əvəzləşdirilməsi problemlərinin aradan qaldırılması həyata keçirilə bilər».

Azərbaycanın vergi rezidentlərinin xaricdə həyata keçirilən fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin vergidən azad olunmasını təklif edən A.Quliyev əlavə etmişdir ki, bu istiqamətdə azad anbar, gömrük ərazisində emal, sərbəst gömrük zonası və sair gömrük rejimləri də inkişaf etdirilməlidir: «İqtisadi çətinliklər zamanı dəyəri yüksək olan zinət əşyalarının satışı üzrə daha yüksək ƏDV dərəcəsinin tətbiqi mümkündür. Həmçinin, müəyyən limiti keçən daşınmaz əmlak üçün proqressiv əmlak vergisi dərəcələrinin tətbiqi, şəxsi təyyarə, üzən vasitələr və konsept minik avtomobilləri üçün daha yüksək aksiz vergisi dərəcələrinin tətbiqi, fiziki şəxslərin aylıq gəlirinin 20.000 ABŞ dollarından artıq olan hissəsinə 33% vergi dərəcəsinin tətbiqi, spirtli içkilər və tütün məmulatları üçün daha yüksək ƏDV və aksiz dərəcələrinin tətbiqi də həyata keçirilə bilər».

Sonra Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri forum iştirakçılarının, sahibkarların çoxsaylı suallarını cavablandırmışlar. Yekun nitqi ilə çıxış edən Ziyad Səmədzadə bildirmişdir ki, açıq dialoq şəraitində keçən bu forumda yaranmış yeni iqtisadi şəraitdə vergi münasibətlərinin qurulması, vergi sistemində tətbiq olunan yeniliklər, sahibkarları narahat edən məsələlər müzakirə edildi. Forumda ictimai və qeyri-hökumət təşkilatlarının, alimlərin, müstəqil ekspertlərin müzakirələrə daha fəal qatılması müsbət amildir. Bu cür tədbirlər gələcək inkişaf yollarını birgə müəyyən etmək, səmərəli təkliflər irəli sürmək baxımından olduqca faydalıdır və davam etdirilməlidir.

## beynəlxalq panoram

# Avropa Komissiyası vergidən yayınmaya qarşı islahat paketini təqdim etdi

Yanvarın sonunda təqdim olunmuş yeni islahat təkliflərinin əsas hədəfi korporativ vergi qaçaqçılığının qarşısının alınmasıdır. Sənəd dörd əsas təklifdən ibarətdir.




***Birincisi,*** Avropa Komissiyası təkliflər paketinə ayrıca Direktiv daxil etməyi zəruri sayır. Direktivə vergi qaçaqçılığı ilə bağlı altı icbari hüquqi öhdəlik daxil olunacaq və həmin öhdəlikləri üzv dövlətlər aqressiv vergi planlaşdırılmasının ümumi formalarının həlli üçün qəbul edəcəklər.

***İkincisi,*** transmilli korporasiyaların vergi işləri üzrə üzv dövlətlər arasında informasiya mübadiləsinin fəallaşdırılması üçün Administrativ Əməkdaşlıq Direktivinə yenidən baxılacaq.

***Üçüncüsü,*** təkliflər paketinə vergi müqavilələrindən sui-istifadə hallarının qarşısının alınması ilə bağlı tövsiyələr daxildir. Bu tövsiyələr sui-istifadə hallarına qarşı üzv dövlətlər arasında vergi müqavilələrinin gücünü artırmaq üçün məsləhətləşmələri əhatə edir.

***Dördüncüsü,*** təkliflər paketinə Avropa İttifaqının və üçüncü tərəfi təmsil edən ölkələrin vergi məsələlərinin idarə olunması üzrə birgə proqramın təkmilləşdirilməsi planı daxil edilmişdir.

Yeni təkliflər paketi ilə yanaşı, Avropa Komissiyası aqressiv vergi planlaşdırması ilə bağlı məsələnin araşdırılmasını açıqlamışdır. Açıqlamada üzv dövlətlərin aqressiv vergi planlaşdırmasına şərait yarada biləcək korporativ vergilərə aid qaydalar (və ya bu qaydaların olmaması) nəzərdən keçirilir, həmçinin vergidən yayınmaq üçün şirkətlərin istifadə etdikləri sxemlər təhlil olunur.

Avropa Komissiyasının vitse-prezidenti, avro və sosial dialoq məsələlərinə məsul Valdis Dombrovskis deyib: «Bununla biz ümumilikdə vergi sisteminə etibarı möhkəmləndirmək üçün daha bir addım atırıq. Bu, vergi sistemini daha ədalətli və daha səmərəli edəcək. İnsanlar inanmalıdırlar ki, vergi qaydaları bütün fiziki və hüquqi şəxslərə eyni dərəcədə aiddir. Şirkətlər üzərlərinə düşən ədalətli vergi payını ödəməlidirlər, çünki burada onların real iqtisadi fəaliyyətləri əks olunur. Avropa vergi ödənilməsindən yayınma ilə bağlı problemlərin həllində dünya lideri ola bilər. Bu, Avropada razılaşdırılmış fəaliyyətlərin göstərilməsini tələb edir».

## Xəbər lenti

**Avropa**nın yeni qanun layihəsinə əsasən, Amerika korporasiyaları Avropa Birliyindəki əməkhaqları və vergi ödənişləri barədə ictimaiyyətə hesabat verməyə məcbur ediləcək.

**Gürcüstan**ın Maliyyə Nazirliyi ilə biznes strukturları nümayəndələrinin görüşündə korporativ gəlir vergisi rejimində islahat planları müzakirə olunmuşdur. Hökumətin niyyəti Estoniyada tətbiq olunan korporativ vergi sisteminə oxşar islahat aparmaqdır. Maliyyə naziri Nodar Xaduri bildirib ki, qanun layihələrinin hazırlanmasında hökumətin özəl sektorla qarşılıqlı fəaliyyəti davam edəcək.

**Çin**də Haynan adasına gələn bütün turistlər fevralın 1-dən il ərzində 16 min yuan (2430 dollar) dəyərində istehlak malları üçün ödədikləri əlavə dəyər vergisinin məbləğini geri ala biləcəklər.

**Filippin**in Daxili Gəlirlər Bürosu əlavə vergi daxilolmaları mənbələrinin tapılması üçün səylərini davam etdirir. Bu yaxınlarda ictimaiyyətə açıqlanmış memorandumda bildirilir ki, öz məhsullarını internet vasitəsilə satan fiziki və hüquqi şəxslərdən vergi tutulacaq.

**İsveçrə** parlamenti öz hesabatında Hindistanla vergi əməkdaşlığı çərçivəsində yaranan əsas problemi açıqlamışdır. «Mübahisənin əsas elementi informasiyanın qanunsuz alınmasıdır və bu, qarşılıqlı tərəfdaşlıq münasibətlərinə, eləcə də şəffaflıq və vergi informasiyalarının mübadiləsi məsələləri üzrə qlobal forum çərçivəsində İsveçrənin mövqeyinə mənfi təsir göstərir», - hesabatda qeyd edilmişdir. İsveçrə tərəfi Hindistanın HSBC bankının Cenevrə filialında hesabı olan vətəndaşlarının fərdi məlumatlarını almaq cəhdini əsas götürür.




## vergi təqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | | | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

1 fevral – «(10.1)»
16 fevral - «(5)»
22 fevral - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.2», «10.3»

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə) İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə) - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# «Təmiz şəhər naminə hərəkətdə ol!» veloyürüşü



Fevralın 13-də Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun, Azərbaycan Velosiped İdmanı Federasiyasının, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin və «İslahatçı Gənclər» İctimai Birliyinin birgə təşəbbüsü ilə Nərimanov rayonunda «Təmiz şəhər naminə hərəkətdə ol!» veloyürüşü keçirilib.

Tədbirin 120 iştirakçısı arasında Milli Məclisin deputatları, müxtəlif ictimai birliklərin rəhbərləri, habelə velosiped idmanı həvəskarları olub. Sağlam və aktiv həyat tərzinin təbliği və gənclərin asudə vaxtlarını faydalı keçirmələrinə çağırış məqsədi daşıyan veloyürüş başa çatdıqdan sonra iştirakçılara sertifikatlar təqdim edilib.



İtaliya millisinin və «Yuventus»un qolkiperi Canluici Buffon futbol tarixinin ən yaxşı qapıçısı seçilib. Fransanın məşhur «France Football» jurnalının keçirdiyi sorğuya qatılan 24 min 548 respondentin 44 faizi məhz ona etimad göstərib. Tarixin ən yaxşı ikinci qapıçısı isə «Mançester Yunayted» və Fransa milli komandasının keçmiş qolkiperi Fabien Bartez seçilib. 1963-cü ildə «Qızıl top»un yeganə sahibi olan qapıçı Lev Yaşin isə bu səsvermədə Almaniya yığması və «Bavariya Münhen» klubunun qolkiperi olmuş Oliver Kanla birlikdə üçüncü və dördüncü yerləri bölüşdürüblər.

# Qadın güləşçilərimiz beynəlxalq turnirdə

Kiyevdə Ukraynanın görkəmli güləşçi və məşqçilərinin xatirəsinə həsr olunmuş sərbəst, yunan-Roma və qadın güləşi üzrə XX beynəlxalq turnir keçirilib. Turnirdə iştirak edən qadın güləşi üzrə yığma komandamızın üzvləri 2 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıblar.

Qızıl medalları yığmamıza Mariya Stadnik (48 kq) və Nataliya Sinişin (58 kq) qazandırıb. Maraqlıdır ki, M.Stadnik keçirdiyi 4 görüşdə rəqiblərinə 1 xal belə verməyib. Finalda güləşçimiz yerli idmançı Oleksandra Kohutu məğlub edib. Nataliya Sinişin isə yarımfinalda komanda yoldaşı Yuliya Ratkeviçdən minimal hesabla üstün olub. Finalda isə güləşçimiz yerli idmançı Oksana Herhelə qalib gəlib.

Turnirdə 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Anjela Doroqan gümüş medala yiyələnib. Bürünc medalları isə yığmamıza Almaz İsmayılova (55 kq), Yuliya Ratkeviç (58 kq), Tatyana Omelçenko (60 kq) və Gözəl Zutova (69 kq) qazandırıblar.



# Azərbaycan cüdoçuları Avropa Kubokunun sahibidir

İspaniyanın Fuenxirola şəhərində cüdo üzrə gənclər arasında Avropa Kuboku yarışı başa çatıb. 21 ölkədən 306 idmançının qatıldığı yarışda iştirak edən Azərbaycan cüdoçuları, ümumilikdə, 5 qızıl, 1 gümüş, 4 bürünc medal qazanaraq, komanda hesabında birinci yeri tutublar.

Oğlanların yarışında 8 çəki dərəcəsindən beşində Azərbaycan idmançıları fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər: Rövşən Əliyev (50 kq), Vüsal İbrahimov (55 kq), Elçin Hüseynov (60 kq), Paşa Əliyev (73 kq), Arif Qasımov (81 kq) qızıl medal qazanıblar. Rüfət Məmmədov, Yaşar Nəcəfov və Murad Fətiyev isə bürünc medallara layiq görülüblər. Bununla da yarışa qatılmış 8 Azərbaycan cüdoçusundan heç biri medalsız qalmayıb.

Qızlardan ibarət komandamızda isə Şəfəq Həmidova 44 kq çəki dərəcəsində gümüş, Gültac Məmmədəliyeva isə 48 kq çəkidə bürünc medal qazanıblar.

## mozaika

maraqlı



# Avropada ilk sualtı muzey

Britaniyalı heykəltəraş Ceyson Teylor Kanar adalarına daxil olan Lansarote adasında (İspaniyanın Las-Palmas əyaləti) sualtı muzey yaradır. O, Baham adalarında, Meksikanın Kankun adasında və Antil adalarında da oxşar muzeylərin müəllifidir.

Britaniyalı Lansarote üçün kolleksiyanın yaradılmasına 2 il vaxt sərf edib. Onun yaratdığı 300 heykəltəraşlıq əsəri qəhrəmanları ada sakinləri olan hadisələrə həsr edilib. Bütün heykəllər əsrlərə davam gətirməyə hesablanan, amma ətraf mühit üçün ziyanlı olmayan çox möhkəm sementdən hazırlanıb. 300 heykəldən 35-i artıq suyun dibində yerləşdirilib.

Təqribən 400 kvadratmetr ərazini əhatə edəcək muzey 12 metrdən 15 metrədək dərinlikdə yerləşəcək. Odur ki, muzeyə təkcə dalğıclar deyil, qurudakı turistlər də tamaşa edə biləcəklər.

Ada hökuməti muzeyin yaradılmasına 800 min avro vəsait ayırıb.

## «Qadın başı» 27,1 milyon dollara satıldı



Pablo Pikassonun «Qadın başı» adlı rəsm əsəri «Sotheby's» satış evinin Londonda keçirilən impressionizm və modernizm əsərlərinin axşam hərraclarında ən bahalı lot olub. Satış evinin nümayəndəsi əsərin 18,9 milyon funt sterlinqə (27,1 milyon dollar) satıldığını bildirib. 16-20 milyon funt sterlinq arası qiymətləndirilən əsərdə rəssamın hamilə sevgilisi Mariya-Tereza Valter təsvir olunub.

Klod Monenin 1908-ci ildə çəkdiyi və 12-18 milyon funt sterlinq arası qiymətləndirilən «Venesiya peyzajı» əsəri hərracda öz alıcısını 11,6 milyon funt sterlinqə tapıb. Monenin Venesiya rəhbərlərinin sarayının təsvir edildiyi əsərlər seriyası və digər rəsmləri bir çox məşhur muzeylərdə, həmçinin Nyu-Yorkdakı «The Metropolitan» muzeyində nümayiş olunur.

Anri Matissin 12-18 milyon funt sterlinq dəyərində qiymətləndirilən «Fortepiano dərsi» əsəri isə hərracda 10,8 milyon funt sterlinqə satılıb. Bu əsər 89 il ərzində Britaniyada şəxsi kolleksiyada saxlanılıb.

ekologiya

## Ekoloji göstəricilərə görə öndəyik

ABŞ-ın Yel və Kolumbiya universitetləri tərəfindən 2016-cı ilin yanvar ayında Ekoloji Göstəricilər İndeksi (Environmental Performance Index) hazırlanıb. Sənəddə 180 ölkə arasında 2 sahə (insan sağlamlığının qorunması və ekosistemlərin mühafizəsi) və 9 istiqamət üzrə qiymətləndirmə aparılıb.

Qiymətləndirmənin nəticələrinə əsasən, Azərbaycan dünya ölkələri arasında 100 ballıq sistem üzrə 83.78 balla 31-ci yerdədir və Yaponiya, Belçika, Hollandiya, İsrail kimi inkişaf etmiş ölkələrdən öndədir. Daha bir diqqətçəkən məqam da budur ki, qiymətləndirmədə qonşu Gürcüstanla Azərbaycan arasında 20 bal fərq olduğu halda, Azərbaycanla 1-ci yerdə olan Finlandiya arasında cəmi 7 bal fərq var.

Eyni zamanda, regional səviyyədə aparılmış qiymətləndirmənin nəticələrinə əsasən, Azərbaycan Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə 2-ci yerə çıxıb. Bu sıralamada ölkəmiz Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Belarusdan qabaqdadır, MDB ölkələri arasında isə birincidir.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının istilik effekti yaradan qazların tullantılarının azaldılması üzrə kəmiyyət öhdəliyi götürməyən tərəf olsa da, son illər ölkədə iqtisadiyyatın üç dəfədən çox böyüməsinə baxmayaraq, tullantıların azaldılması istiqamətində həyata keçirilən konkret tədbirlər hesabına həmin tullantıların 1990-cı ilin baza səviyyəsindəki 73 milyon tondan 51 milyon tona qədər endirilməsinə nail olub.

Daha bir uğurlu göstərici isə odur ki, Ekoloji Göstəricilər İndeksində meşələrlə bağlı istiqamətdə qiymətləndirmə üzrə Azərbaycan 180 ölkə arasında 5-ci yeri tutub. Bu yüksək göstəricinin əldə edilməsinin səbəbi yeni meşə əkinləri nəticəsində meşə ilə örtülü ərazilərin sahəsinin artırılaraq 11,8 faizə çatdırılması, sənaye qırıntılarının qadağan olunması, meşələrin mühafizəsi tədbirlərinin gücləndirilməsi, o cümlədən qanunsuz ağackəsmə hallarının qarşısının alınması, regionların qazlaşdırılması və s. olub.



**Müdriklər deyib ki...**

*«İnsanlara ədaləti sevməyi öyrətmək üçün onları ədalətsizliyin nəticələri ilə tanış etmək lazımdır».*

*Adam Smit (1723-1790)*

